# ŞİƏLİKDƏ 12 İMAM NAĞILI

**Batil inanca nə Qurandan, nə də səhih hədislərdən dəlilin olmaması və sağlam ağla zidd olmasının isbatı**

**Topladı:**

**Asim Məmmədov**

**SUNNA.AZ**

# Müqəddimə

Hörmətli şiə həmvətənimiz, hörmətli oxucu!

Yəqin ki, şiəlikdə Allaha imandan sonra imanın ən mühüm şərtinin - 12 imama iman etmək olmasını eşitmiş və öyrənmişsən. Həmçinin, 12 imama iman etməyənin müsəlman olmadığını da sənə öyrədiblər. Lakin səndən gizlədilən şeyin, yəni bu cür mühüm bir məsələyə iman etməyin vacibliyinə dair Quranda dəlilin olmamasıdır. Yeri gəlmişkən, bu məsələyə aid heç bir səhih hədisin olmaması da səndən gizlədilir. Bu kitabda səndən gizlədilən bu məsələləri bir-bir izah edəcəyik. Səndən yeganə xahişimiz, kitabı axıra qədər oxuyaraq məsələdə öz araşdırmanı başlatmandır. Doğru olduğumuzu görəcəksən. Kitabçada qeyd etdiyimiz məsələlərə gətirdiyimiz dəlillər, ən mötəbər şiə kitablarında olan və sizdən gizlədilən yüzlərlə, minlərlə dəlillər içərisindən seçilmiş nümunələrdir. Bu nümunələr belə, bu etiqadın ən böyük sütunu olan imamətin əsası olmayan bir yalan, xurafat olmasını isbat etməyə kifayət edir. Bunu başa düşdükdən sonra isə sənə əsası Quran və səhih hədislərdən ibarət olan doğru etiqada - Peyğəmbər yolu olan Sünnəyə üz tutmanla aranda yalnız səmimi tövbə etmək qalacaqdır. Kitabçanın oxuyan hər bir müsəlman üçün faydalı olmasını və Allahı razı salacaq xalis, saleh əməl kimi yazılmasını Uca Rəbbimizdən diləyirik.

Asim Məmmədov, 5 Okytabr 2021

# Birinci Fəsil

## İmamət nədir? Şiəlikdə və Əhli-sünnədə iman məsələsində əsas fərqlər

Hörmətli oxucu, ilk öncə qeyd edək ki, bu mövzu Əhli-beytə sevgi mövzusundan fərqlidir. Biz Əhli-sünnə də Əhli-beyti sevir, onlara dil uzadanlara nifrət edirik. Burada isə tamamilə başqa bir məsələ, Əhli-beyt məsələsindən daha mühüm bir mövzu müzakirə olunur. Bu mövzunun mahiyyətini dərk etmək üçün ilk öncə şiəlik və sünnilik arasında olan imanın şərtlərindəki fərqlərə nəzər salaq. İmanın şərtləri dedikdə elə məsələlər nəzərdə tutulur ki, bunlardan birinə iman etməmək imanın olmamasına və iman etməyənin islam ümmətindən çıxmasına dəlalət edir. Əhli-sünnə və şiəlikdə tam eyni formada olmasa da, ittifaq olunan iman məsələləri bunlardır:

- Allaha iman,
- Peyğəmbərlərə iman,
- Mələklərə iman,
- Kitablara iman,
- Axirətə iman.

Bu məsələdə fərqlilik isə Əhli-sünnətdəki qədərə iman, şiəlikdə isə imamətə imandır. Quranda qədərə açıq-aydın dəlillər olsa da, şiəlik bunu mötəzilə firqəsinə müvafiq olaraq qəbul etmir.

Hətta mötəbər şiə hədis kitablarında islamın 5 rükunundan birinin imamət/vilayət olması barədə də hədislər vardır. Kuleyni “Kafi”də guya Əbu Cəfərin belə dediyini rəvayət edir “İslam beş şey üzərində qurulmuşdur: namaz, zəkat, oruc, həcc və vilayət. İnsanlar vilayət qədər heç bir şeyə çağırılmamışdılar, onlar isə 4-nü götürüb vilayəti tərk etdilər.”[1]

İnsanı İslama daxil edən iki kəliməyə - Allah və peyğəmbərə iman gətirməyi təsdiq edən kəlimeyi şəhadətə də şiəlikdə üçüncü kəlimə - vilayətə iman kəliməsi əlavə edilmişdir. Bu da avtomatik olaraq ilk vəlinin Əli yox, Əbu Bəkr olmasına iman etmiş Əhli-sünnənin şiəliyə görə müsəlman olmamasına çağırışdır.

[1] Kafi, iman və küfr kitabı, İslamın dayaqları babı 2/18, 3-cü rəqəm

Ümumiyyətlə, Əhli-sünnə şiəlikdəki imamət məsələsinə iki şeyə görə inanmır:

- Quran və səhih hədislərdən dəlil olmadığına görə
- İddianın ağla zidd olmasına görə

Bu risalədə imamətə iman iddiasının əsassız olmasını sübut edəcəyik.

## 12 imam etiqadında olmayanlara münasibət

Bütün şiə alimlərinə görə, imamətə iman etməyən hər bir kəs müsəlman deyildir.[1] Qeyd edək ki, imamətə iman şiəlikdə Allaha imandan sonra ən böyük məsələdir.[2] Onlara görə imamlar bütün peyğəmbərlərdən və mələklərdən üstündürlər.[3] Üstəlik, 12 imamçı cəfərilərə görə nəinki Əhli-sünnə, hətta özünü şiəliyə nisbət edən, lakin 12 yox, məsələn 4, 6, 7 imamçılar və yaxud imamların adlarında 12-imamilərlə razılaşmayan şiə firqələri də kafir görülür. Məsələyə qayıdacağıq.

## İmamilik etiqadı nədir? 12 imam etiqadının yaranma mərhələləri barədə qısa məlumat

Ümumiyyətlə, şiələr iddia edirlər ki, son peyğəmbərin ölümündən sonra İslam dininin Qiyamətə qədər qorunması üçün məsum imamlara, rəhbərlərə ehtiyac vardır. Guya bu imamlar, atadan oğula iməməti ötürərək Qiyamət gününə qədər bu dini qorumasalar məsum olmayan insanlar bu dini təhrif edəcəklər.[4]

Qeyd edək ki, şiəliyin ilkin dönəmində bu etiqadın əsas şüarı sadəcə Əlinin vilayəti idi. İlk şiələr Əlinin vilayətinin Əbu Bəkr və Ömərin vilayətindən sonra olduğunu söyləyirdilər.[5] 12 imam etiqadından söhbət belə getmirdi. İbn Səba adlı yəhudi tərəfindən ilk dəfə irəli atılan iddia - hər bir peyğəmbərin vəsisinin, yəni vəsiyyət etdiyi bir şəxsin və sonuncu vəsinin də Əli olması idi.[6]

Əlidən sonrakıların peyğəmbərin birbaşa vəsiləri olmadığına görə, şiələr öz etiqadlarını qorumaq üçün imamət etiqadını, imamətin peyğəmbərlik kimi ilahi bir vergi olmasını, imamların vəhy aldıqlarını uydurdular və guya Allahın təyini ilə

---

[1] “Qeybə ən-Numəni”, fəsil 7; hədis 8

[2] Kuleyni “Usul əl-Kafi” 1/437, Saduq “Əmali” səh.154-155

[3] Xomeyni “əl-Hukumətul-İsləmiyyə” səh. 52

[4] Kuleyninin “Usul əl-Kəfi” və Məclisinin “Biharul-Ənvər” kitablarında imamət ilə əlaqəli bölümlərə müraciət edə bilərsiz!

[5] Əbül-Qasim əl-Bəlxinin İbn Ravandiyə rədd kitabı, Qazi Əbdul-Cəbbar əl-Həmədaninin "Təsbitun Nubuvvə" kitabı, İbn Teymiyyə "Minhəcus-Sunnə" cild 1, səh 13

[6] Novbəxti “Firaquş-şiə” səh.22

imamlığın atadan oğula keçməsini iddia etdilər.[1] Bu məsələnin İbn Səbadan sonra yenidən gündəmə gəlməsi şiələrin Mümin Et-taq adlandırdığı şeytan və Həşəm ibn Həkəmin müstəsna rolu olmuşdur. Onlar Allahın yer üzərində təyin etdiyi imamların olduğunu ilk söyləyənlər idi.[2]

Daha sonra Həzrət Əlinin (Allah ondan razı olsun) oğlu Muhəmməd ibn Hənəfiyyənin imamlığını iddia edən 4 imamçı Keysənilər, Zeynalabdinin imamlığını etiqad edən və imamətin məhdud sayının olmadığını iddia edən Zeydilər, Muhəmməd Baqirin oğlu İsmayılın imamlığını iddia edən İsmayililər, Cəfər Sadiqin oğlu Abdullah Əl-Əftahın imamlığını iddia edən 6 imamçı Fəthilər, Musa Əl-Kazımı sonuncu imam sayan 7 imamçı Vaqifilər və digər şiə tayfaları yarandı.[3] Hər dəfə son imam öldükdən sonra yeni bir firqə meydana gəlirdi. 12 imamlığı iddia edən Cəfərilər bu firqələrdən sadəcə biridir. Ümumiyyətlə, bu firqələrin sayı 30-dan artıqdır.

Üstəlik, bu firqələr təkcə imamətin sayında yox, habelə tövhid, qədər, iman və digər məsələlərdə də ixtilaf etmişlər. Onlardan ilkləri Allahı eni, uzunu, hündürlüyü bərabər olduğunu iddia edən mücəssimə (Allahın cism olduğunu iddia etmək)[4], bir qismi Quranın zahirinə yox, batininə inanan fəlsəfəçi Qaramita batinilik, bir qismi isə Allahın Quranda və Sünnədə keçən sifətlərini, o cümlədən qədəri inkar edən mötəzilə etiqadını götürmüşlər.

Xülasə odur ki, Əhli-sünnəni kənara qoysaq, bu şiə firqələri hətta bir-birilərini kafir görürlər, onların qanını, malını və namusunu halal sayırlar.

Bir çox hallarda, onlar özləri qoyduqları qaydaları özləri inkar etmiş, batillərini əsaslandırmaq üçün yeni bir qaydaya keçid etmişlər, sonra ona uyğun yeni hədislər uydurmuşlar.

Məsələn, əvvəl Peyğəmbərin bir vəsisinin olduğunu dedilər. Əli (Allah ondan razı olsun) şəhid olduqdan sonra Həsəni, sonra isə Hüseyni imam elan etdilər. Nədənsə Əhli-beyt anlayışını Həsənin yox, Hüseynin zürriyyətinə bağladılar.

Araşdırdıqda Hüseynin zövcəsi Şəhrbanunun fars padşahı 3-cü Yezdəgirdin qızı olması meydana çıxır. Şiəliyin farslaşması da məhz bu məqamla bağlıdır. Sonra imamətin atadan böyük oğula keçdiyini dedilər. Lakin 4-cü imam saydıqları Zeynalabdinin böyük oğlu Zeydin yox, kiçik oğlu Baqirin imam olduğunu

---

[1] Kuleyninin "Usul əl-Kəfi" və Məclisinin "Biharul-Ənvər" kitablarında imamət ilə əlaqəli bölümlərə müraciət edə bilərsiz!

[2] Ricalul Kəşşi 186 s., 258 s., Kafi 1/174.

[3] Novbəxtinin "Firaq əş-Şiə" (yəni "Şiə firqələri") kitabına müraciət edin!

[4] Muhsin Əmin "Əyanuş-şiə" 1/106, Kuleyni "Usul əl-Kafi" 1/105, Saduq "Tövhid" səh.97

söylədilər və bunu əsaslandırmaq üçün “Bədə - Allah qərarını dəyişdirdi” kimi bir küfr qaydasını ortaya atdılar.[1] Zeydi şiələr isə onlarla razılaşmadılar və hər iki tayfa bir-birini kafir elan etdi.

12 imamçılar, 11-ci imam saydıqları Həsən Əl-Əskərinin sonsuz olduğunu və həyat yoldaşının hamilə qalmadığını gördükdə “*budundan hamilə qaldı və oğlu kiçik yaşında qeybə çəkildi*” dedilər.[2] Qiyamətin qopması gecikdikdə 12-ci imamın qeybini 1200 il uzatdılar. Zeydilər isə Əhli-beytdən qiyamətə qədər imamların çıxdığını və 12 ədədinin əsassız olduğunu iddia edirlər.

Onlar arasında bu cür ixtilaflar, parçalanmalar daim davam etmişdir. Hər firqə öz icad etdiyi qayda ilə özünün doğru olduğunu isbat etməyə çalışmaqdadır.

Bütün bu ziddiyyətlər, ixtilaflar, imamət məsələsində onlarla müxtəlif firqələrin olması, bu etiqadın heç bir məntiqə və nəqlə (Quran və səhih xəbərlərə) söykənən əsasının olmamasına işarədir.

Azərbaycandakı şiələrin demək olar ki, hamısının 12 imamçılıq - cəfəriliyi izlədiyi üçün, biz də təkcə imamət yox, 12 imamçılıq etiqadını bu risalədə araşdıracağıq.

## 12 imam etiqadını iddia edənlər hansı dəlillərə söykənirlər?

Bu etiqadın haqq olduğunu isbat etmək istəyənlər, etiqadın guya həm əqlə (ağıla), həm də nəqlə, yəni Quran və hədislərə söykəndiyini iddia edirlər.

Qeyd edək ki, Əhli-sünnədə bütün məsələlərin isbatı iki mənbəyə söykənir:

1. Quran ayələrinin zahiri mənaları.
2. Peyğəmbərin (Allahın ona salamı olsun!) sünnəsini, yolunu bizə çatdıran səhih hədislər.

Əhli-sünnə Quran və səhih Sünnənin zahiri mənalarının heç bir zaman ağıla zidd olmadığını söyləyir və isbat edirlər.

Hansısa məsələyə iman gətirmək prinsipi isə qısa olaraq belədir:

Hamımız müsəlman olduğumuz üçün Quranın haqq olduğunu isbat etməyə ehtiyac yoxdur. Peyğəmbərin haqq olduğunu isə Quran açıq-aydın ayələrdə bizə göstərir. Quran olmasaydı, peyğəmbərə imanın haqq olduğunu isbat etmək mümkün olmazdı. Hər bir peyğəmbər onun haqq olduğunu öz qövmünə isbat edən bir dəlillə gəlmişdir. Peyğəmbərimizin (Allahın ona salamı olsun!) də ən böyük dəlili, burhanı

[1] Kuleyni “Usulu-Kafi” 1/327
[2] Məclisi “Biharul-Ənvar” cild 52 / 25-ci və ondan sonrakı səhifələr

gətirdiyi Qurandır. Quran da öz növbəsində Allah və peyğəmbərinə itaət etməyi, yəni onun sünnəsini izləməyi tələb edir.

Peyğəmbər (Allahın ona salamı olsun!) də öz növbəsində səhabələrinə həm Quranı, həm də Sünnəni düzgün tətbiq etməyi, habelə növbəti nəsillərə hansı formada çatdıracaqlarını öyrətmişdir. Beləliklə, Quran və Sünnə əsasını peyğəmbərin qoyduğu xüsusi bir metodologiya ilə təhrif olunmadan günümüzə qədər çatdırılmışdır. Əsas metod səhabələrdən başlayaraq, yaddaşına və dininə güvənilən mötəbər alimlərin bir-birinə zəncirvari nəql etməsidir. Həm Quranın 7 mütəvatir, 3 əhəd, 4 şaz qiraətini, həm də peyğəmbərin sünnəsini əks etdirən səhih hədisləri ümmətə məhz Səhabələr və onları izləyən Əhli-sünnə alimləri, qariləri və mühəddisləri çatdırmışdır. Mövzu ilə əlaqəli olduğuna görə qeyd edək ki, Əhli-sünnə kitablarında peyğəmbərdən 10 minlərlə səhih hədis nəql edildiyi halda, bütün mötəbər şiə mənbələrində peyğəmbərdən cəmi 600-ə yaxın hədis nəql edilmişdir. Onlardan bir dənəsi belə səhih deyildir! Quran qiraətlərinin nəqlində isə bircə dənə də şiə iştirak etməmişdir.

Üstəlik, onu da qeyd edək ki, Peyğəmbərdən nəql olunmuş hədislərin səhih olma şərtlərindən ən mühümü də onun Quranın zahiri mənalarına zidd olmamasıdır. Hədislərdə keçən bütün əsas iman məsələlərinə, ümumi də olsa Quranda mütləq dəlil vardır.

Beləliklə, istənilən bir məsələnin haqq olub olmaması üçün Əhli-sünnə və Camaat əvvəl Qurana, daha sonra isə Peyğəmbərin sünnəsinə baxır.

Bütün məsələlərin Allahın kitabına və peyğəmbərin sünnəsinə qaytarılması elə Quranın əmridir.[1]

Qayıdaq şiəlikdəki imamət məsələsinə. Bu məsələnin də isbatı ilk öncə Quran və Peyğəmbərdən səhih hədislər üzrə olmalı idi. Peyğəmbərə imanın haqq olmasının belə, Quranla isbat olunmağa ehtiyacı olduğu halda, şiəliyin Allaha imandan sonra ikinci iman şərtinə Qurandan dəlil olmaması, bu məsələnin batil olmasına dəlil olaraq kifayətdir.

Buna görə də, Quranın səhabələr tərəfindən dəyişdirilməsi və əsl Quranın guya qeybdə Mehdinin yanında olması barədə demək olar ki, bütün şiə alimləri ittifaq etmişlər.[2] İmamətə peyğəmbərdən bircə dənə səhih hədisin olmaması artıq bu məsələnin batil olmasını gücləndirir. Qalır bircə imamətin guya zəruri olması barədə əqli – yəni ağıla söykənən dəlili ki, bu da guya Qiyamətə qədər insanların

---

[1] Nisa surəsi 59, 61, 65 və onlarla ayə

[2] Miratul-Ənvər səh.36, səh.49-51. Adnan əl-Bəhrani "Məşariquş-Şumus əd-Durriyyə" səh.126

İslam şəriətini qoruyacaq məsum başçılara ehtiyacının olması iddiasıdır. Bu və digər guya əqli iddiaların batil olmasını, inşəallah, bu risalənin ikinci fəslində, Qurandan gətirdikləri ayələrin onların iddialarına dəlil olmamasını üçüncü fəsildə, imamətə hədislərdən də dəlil olmadığını isə dördüncü fəsildə izah edəcəyik.

# İkinci Fəsil

## “Peyğəmbərdən sonra 12 məsum rəhbərə, imama ehtiyac var” deyə ortaya atılan “əqli” iddiaya cavab

Hörmətli şiə həmvətənim! Artıq birinci fəsildə sənə imamilik etiqadının yaranma mərhələləri və şiə firqələri arasında hansı ixtilafların olması barədə danışdıq. Bu risaləni axıra qədər oxusan imamətə heç bir əqli dəlilin olmamasını, şiəliyin məsum imamlar deyil, adi insanların uydurduğu hədislər üzərində qurulduğunu görərsən.

İlk öncə qeyd edək ki, biz Əhli-beyti sevir, hər namazımızda onlar üçün dua edirik. Bizim tənqidimiz Əhli-beyt haqqında yox, Əhli-beyti 12 imamla məhdudlaşdıran və 12 imama imanı dəlilsiz vacib edən, buna iman etməyəni kafir görən 12 imam etiqadı və bunu icad edənlər haqqındadır.

### Şiəlikdə imamətə ən güclü dəlil hansı əqli iddiadır?

İddiaya görə, Allah peyğəmbəri (Allahın ona salamı olsun!) öldükdən sonra Allahın Quranda razı qaldığı və Quranı cəm edəcək səhabələr və onları izləyənlər guya dini dəyişdirəcəkdilər və sanki bunun qarşısını almaq üçün məsum, günah etməyən 12 qeyri-adi imama ehtiyac vardır. Lakin yaxından baxdıqda, reallıqla bu iddia arasında böyük bir uçurumun olduğunu hər bir vicdan sahibi görməkdədir.

### İmamların vəzifələri nə olmalı idi? 3 variantdan biri doğrudur.

Belə olduğu halda bu əqli iddianın doğruluğunu, xüsusilə də, Qurana zidd olmamasını yoxlamaq üçün belə bir sual veririk. Bu imamların əsas vəzifəsi nə idi?

a) Quran və Peyğəmbərin bu Qurana verdiyi izahdan ibarət olan islam şəriətdən kənar bir şəriəti, yəni müstəqil bir vəhyə söykənən bir şəriəti qorumalı və tətbiq etməli idilər.
b) Bu şəriətdən kənar deyil, lakin ona əlavə bir şəriətlə hökm edəcəkdilər.
c) Bu şəriəti qorumalı və tətbiq etməli idilər.

a. Əgər cavab “Quran və Peyğəmbərin bu Qurana verdiyi izahdan ibarət olan islam şəriətdən kənar bir şəriəti” olarsa, bu küfrün lap özü olar. Cünki Uca Allah bu şəriəti qiyamətə qədər qoruyacağını[1] söyləmiş və Muhəmməd peyğəmbərin son

[1] Hicr surəsi 9

peyğəmbər olduğunu bildirmisdir.[1] Bu iddia Qurana ziddir. Təəssüflər olsun ki, ən mötəbər şiə hədis kitablarında imamların sərbəst vəhy almaları[2], son imamın fərqli Quranla gələcəyi[3], hətta Tövratla hökm verəcəyi[4] barədə onlarla Qurana zidd hədislər olduğu halda, bunun küfr və batil olmasını bir çox şiə ya bilmir, ya da gizlədir. Hətta bunu müdafiə edirlər, digərlərini də aldadırlar. Xülasə, bu ehtimal məqbul deyil.

b. Yox əgər, "bu şəriətdən kənar deyil, lakin ona əlavə bir şəriətlə hökm edəcəklər" olsa, yenə də Qurana zidd olacaq. Çünki Uca Allah Quranda artıq dinimizi tamamladığını və kamil etdiyini bildirmişdir.[5] Deməli bu cavab da batildir.
c. Qalır yeganə 3-cü cavab. Şiələr deməlidirlər ki, imamlar Quran və Peyğəmbər şəriətindən kənara çıxa bilməzlər və fərqli bir şəriətlə gələ bilməzlər. Əslində, məsumluq iddiası da məhz buna görə idi. Gunah etməyən, yalan danışmayan, xəyanət etməyən məsumlar bu şəriəti "qorumalı" və gələcək nəsillərə çatdırmalı idilər.

## İmam ya elmdə imam, ya da xəlifə olmalıdır

Bu zaman növbəti sual meydana çıxır. 12 imam şəriəti hansı formada qoruyacaq? Səlahiyyətləri nədir? Bu sualların cavabını bildikdə, doğrudan da "12 məsum imam" etiqadının ortaya atılan "islamı qorumaq" iddiası ilə uzlaşıb uzlaşmadığını görəcəyik.

İmam sözünün mənası öndər, rəhbər deməkdir. Ümumiyyətlə, dinimizə görə imamlıq əsas iki formada baş verir. Birincisi elmdə imamlıqdır. İkincisi isə elmin tətbiqi üçün gücdə, sultanlıqda imamlıqdır. Bununla İslam şəriətinin düzgün tətbiqinə, şəriətə müxaliflərin cəzalandırılmasına və islam şəriətinin cihadla dünyaya yayılmasına nail olunur. Peyğəmbərlər tarixinə baxarsaq, onlardan yalnız elmi çatdıran, dəvət edən, sultan olmayan peyğəmbərlər, habelə elmi çatdırmaqla yanaşı, xəlifə olaraq şəriətin insanlar arasında həyata keçməsinə nəzarət edən Davud kimi, Süleyman kimi, Muhəmməd peyğəmbər (Allahın ona salamı olsun!) kimi xəlifə peyğəmbərlər olmuşdur. Buna görə də, iddia edilən 12 imamın 12-si də ya elmdə imam olmalı, bu elmi ümmətə çatdırmalı və elmi təhrifdən qorumalıdırlar, ya da xəlifə olmalıdırlar ki, qiyamətə qədər islamın düzgün tətbiqinə nəzarət etsinlər.

---

[1] Əhzab surəsi 40
[2] əl-Bəsair, səh.63. Biharu-l-Ənvar, 13/300. Biharu-l-Ənvar, 26/159. əl-Bəsair, səh.109-120
[3] Əl-ğeybə, səh.200. Əl-Noməni, Nuri ət-Tabarsi "ən-Nəcm əs-Səqib" 3-cü bölüm, səh.293
[4] Kuleyni "əl-Kəfi", Kitab əl-Hüccə səh.249
[5] Maidə surəsi 3

## 12 imamdan neçəsi elmdə imam olmuşdur? Bizlərə hansı elmi çatdırmışlar?

İlk öncə elmdə imam olmaq barədə danışaq. İslamda ən mötəbər elm məhz Qurandır. Birinci fəsildə qeyd etmişik ki, əlimizdə olan Quranın 10 mötəbər qiraətinin nəqlində onlarla səhabə və tabiinlə yanaşı, 12 imamdan yalnız Əli, Hüseyn və Cəfərin iştirakı olmuşdur. Onlardan nəql edənlər, yenə də Əhli-sünnənin Nəfi, İbn Kəsir, Əbu Amr, İbn Amir, Asim, Həmzə, Kəsai, Yaqub, Xələf ibn Hişam, Yezid ibn Əlqaqa kimi Əhli-sünnə qariləri, alimləri olmuşdur.

Şiə alimləri isə iddia edirlər ki, Quran dəyişdirilmiş, imamlar buna mane ola bilməmiş, guya 3 dəfə daha böyük Quranı hamıdan gizlədərək Mehdiyə çatdırmişlar ki[1], həmin Quranı ümmətdən 1200 il gizlətsin. Yəni insanları zülmətdən nura çıxarmaq üçün göndərilən əsl Qurandan, peyğəmbərin ölümündən sonra ancaq 12 imam faydalanacaq, sonra **1200 ildən artıq bir vaxtda mağaradakı Mehdinin əsas işi Quranı çatdırmaq yox, onu insanlardan gizlətmək olacaq… Bunu ağıl qəbul edirmi?**

İslamda ikinci elmi mənbə isə Peyğəmbərin hədisləridir ki, bizə səhabələr, 12 imamla məhdud olmayan onlarla Əhli-beyt üzvü və onları izləyən Əhli-sünnə alimləri tərəfindən çatdırılmışdır. Qeyd edək ki, Əhli-sünnənin mötəbər hədis kitablarında Peyğəmbərin özündən on minlərlə səhih hədis nəql edildiyi halda, şiələrin mötəbər kitablarında Peyğəmbərin ağzından nəql edilən cəmi 640 hədis var ki, onlardan heç birinin sənədi sağlam deyil, yəni heç biri səhih deyildir.

Belə bir sual meydana çıxır. Əlimizdəki Quranı məsum olmayan əhli-sünnə alimləri qoruyaraq bizə çatdırıbsa, Peyğəmbərin hədislərini niyə onlar çatdırmasın ki? Buna əqli olaraq nə mane olur? **Nə ehtiyac var məsum imamlara?** Bir haşiyə də çıxaq ki, Əhli-sünnənin mötəbər hədis kitablarındakı hədis nəqli və səhihləşdirmə metodlarını əqli yolla inkar etmək demək olar ki, mümkünsüzdür.

12 imamdan 3-ü Əli, Həsən, Hüseyn səhabə olmuşdur (Allah hamısından razı olsun). 4-ü Zeynalabdin, Baqir, Cəfər və Musa islam ümmətinin mötəbər alimlərindən, güvənilən mühəddislərindən olmuşlar. Əhli-sünnə onlardan bir çox hədis rəvayət etmişdir. Yerdə qalan 5 imamdan 4-ü nə hədis rəvayət etmişlər, nə də ki, elm əhli kimi tanınmışlar. Onlar digər Əhli-beytdən olan həşimilər kimi hörmət sahibi olmuş, insanlar da onları sevmişlər.

Sonuncusuna, 12-ciyə gəlincə, guya 3 yaşında mağaraya çəkilib və 1200 ildir onu görən, eşidən yoxdur, günümüzdə İranın eks-kommunist lideri Xamneyinin guya

[1] Nemətullah əl-Cəzairi "əl-Ənvar ən-Noməniyyə" cild 2, səh.360

onunla təmasda olduğu iddia olunur… **1200 ildə oturub bir hədis kitabı yaza bilməzdimi? Yoxsa fitnədən qorxur? İmam Əhməd 3 dəfə həbs olunub və ömrünün bir çox hissəsini zindanda döyülməklə keçirib. Lakin qorxmayıb və elmi çatdırıb. İmam Əbu Hənifə zindanda ölüb, İmam Buxari sürgün edilib və sürgün səbəbi ilə xəstələnərək ölüb, İbn Teymiyyə həbsdə ölüb, amma kitabları, elmləri çatıb… Məsum "imam" isə gizlənir"?!**

Peyğəmbərin ən mühüm missiyası elmi çatdırmaq, vəhyin düzgün tətbiqini insanlara göstərmək idi… **Bəs 12-ci imamın işi - missiyası nədir?!**

Xülasə, 12 məsum imam zəncirinin, 5 üzvü bu missiyanı faktiki olaraq yerinə yetirməmişlər. Nə Əhli-sünnə, nə də şiə mənbələrində onlardan səhih bir hədis yoxdur. Üstəlik, uydurma rəvayətlərin sayı belə çox-çox cüzidir.

Ümumiyyətlə, 4 ən mötəbər şiə hədis kitablarında rəvayət olunan 44242 hədisin **cəmi 644-ü** Peyğəmbərin sözləri, 690-ı İmam Əlinin, 0 ədədi Fatimənin, 21 Həsənin, cəmi 7-si Hüseynin sözləridir. **Heç biri də səhih deyildir.**

Şiə kitablarındakı hədislərin demək olar ki, 60-70 faizi məhz Cəfər Sadiqdən rəvayət olunmuşdur. Məsələn, ən mötəbər şiə hədis kitabı Kuleyninin topladığı Kafidə 17000-ə yaxın hədisdən cəmi 92-si Peyğəmbərin sözləri olduğu halda, 9219-u isə Cəfərin sözləridir. Kuleyni ilə Cəfər arasındakı hədis raviləri isə məsum imamlar yox, fasiq, elm əhli olmayan şiə raviləridir. Halbuki, Kuleyninin dövründə artıq qeybdə olan 12-ci imam, doğrudan da, mövcud olsaydı, birbaşa özü ya hədisləri cəm edərdi, ya da Kuleyniyə imla edərdi.

Əslində məsum imamların elmi ötürməsi bu mexanizmlə (bax: Şəkil 1) baş verməliydi:

Peyğəmbərin Əliyə, onun da Həsənə, onun da Hüseynə, onun da Zeynalabdinə, onun da Baqirə, onun Cəfərə… bu minvalla 12-ci imama qədər ötürdükləri sözləri hədis toplusu kimi məsum imam tərəfdən cəm edilməliydi. Və ya imamlardan hər hansı biri, məsələn, Cəfər hədisləri cəm edib qorunan bir kitab kimi ümmətə çatdırılmalı idi. Danılmaz fakt budur ki, heç bir imam hədis kitabı cəm etməmişdir. Bəs şiəlikdəki hədisləri bizə kim çatdırmışdır?




*Şəkil 1*

Əslində isə baş verən belədir (bax: Şəkil 2): Şiəlikdə ilk və ən mötəbər hədis kitabı olan Kafi məsum olmayan, Quranın təhrifini iddia edən zındıq Kuleyni adlı şəxs tərəfindən cəm edilmişdir. Özü ilə ən çox hədis nəql etdiyi imam Cəfər arasında isə, azı 4 təbəqə/nəsil, məsum olmayan, fasiq, cahil, zındıq şəxslər-ravilər olmuşdur. Bu 4 təbəqə hədis ravilərinin ən məşhurlarını, Cabir əl-Cofi, Zurara ibn Əyun kimi raviləri imam Cəfər özü inkar etmişdir, hətta lənətləmişdir.[1, 2] Bunları kənara qoyaq, Kuleyninin nəql etdiyi hədislərin demək olar ki, yarısında "bir nəfər", "Kufədən bir kəs" kimi, adı belə bilinməyən məchul ravilər vardır. Hətta uzunqulağın atası uzunqulaqdan, onun da babaları uzunqulaqlardan nəql etdiyi hədis də vardır. Uzunqulaq dedikdə elə əsl uzunqulağı qəsd edirik...[3]

[1] Ricəlul-Kəşşi" səh.169, Məməqani "Tənqihul-məqal"2/203

[2] Ricalul-Kəşşi səh.137,142, "İxtiyaru mərifətur-ricəlil-məruf bi ricəlil-kəşşi" 2/229,237; Məsələnin geniş izahı üçün Şahin Həbiblinin qələmə aldığı "Səqəleyn Hədisi" adlı risaləni oxumağı tövsiyyə edirik

[3] Usulu-Kəfi 1/237




*Şəkil 2*

Beləliklə, şiələr öz dinlərini məsum imamlardan yox, Kuleynidən və onunla İmam Cəfər və digər imamlar arasındakı dövrdə yaşamiş fasiqlərdən götürmüşlər (müqayisə üçün bax: Şəkil 3).




*Şəkil 3*

İndi isə gəlin, ilk şiə hədis kitabı Kafini, ilk Əhli-sünnə hədis kitabı olan Muvatta ilə muqayisə edək.

Kuleyni, əksər hədisləri hələ Quran və Sünnə ilə məsumluğu isbat edilməmiş İmam Cəfərdən nəql etdiyi halda, Malik ibn Ənəs demək olar ki, bütün hədisləri məsumluğu Quranla isbat edilmiş Peyğəmbərdən nəql etmişdir.

Maliklə Peyğəmbər (Allahın ona salamı olsun!) arasında cəmi iki təbəqə/nəsil - Quranı nəql edən, Allahın Quranda təriflədiyi,[1] Peyğəmbərimizin ən xeyirli nəsillər adlandırdığı səhabə və tabiinlər[2] - olduğu halda, Kuleyni ilə imam Cəfər arasındakı 4-5 təbəqə, elə imamların, şiə alimlərinin ifşa etdiyi fasiq, zındıq ravilər durur. Aşağıdaki qrafikə (bax: Şəkil 4) fikir verin. Əslində hədisi ötürən bunlardır, bunları müqayisə etməliyik.




*Şəkil 4*

Məlikin cəm etdiyi Muvatta adlı hədis kitabı Peyğəmbərdən təqribən cəmi 150 il sonra olduğu halda, Kuleyni Kafisini təqribən 330 il sonra toplayıb. Muvatta günümüzdən təqribən 1200 il əvvəl, Kafi isə 1000 il əvvəl toplanıb. **Peyğəmbərin hədisləri qorunmayıb deyənlərə sual veririk: Cəfərin hədisləri necə qorunacaq!?**

[1] Tövbə 100, Fəth 18, Fəth 29, Hədid 10, Həşr 8-10 və digər ayələr
[2] Əbu Davud 4607, Buxari 2651, 2652

Üstəlik, Məlik hədislərində həm hədisin sənədi baxımından, həm də mənası baxımından müxalifliklərin olmamasına diqqət yetirdiyi halda, Kuleyni nə sənədə, nə də mənaya fikir verməmişdir. Çünki yazdığı hədislərin əksəriyyətini uydurmuşdur.

Digər ən mühüm sual da odur ki, niyə Küleyninin hədis topladığı vaxtda mağaraya çəkilmiş Mehdi, bu hədisləri yoxlamamışdır. Digər böyük hədis kitabının müəllifi Məclisi, Kuleyninin Mehdi ilə görüşdüyünü və Kafini yoxladığını iddia edir.[1] **Yaxşı görüşüblərsə, niyə ona elə məsum imamlar zənciri ilə olan bircə hədis belə rəvayət etməmişdir? Uydurduqları 12-ci imamı niyə bu qədər biganə biri kimi qələmə verirlər?!**

Əziz oxucu! Gördüyünüz kimi elmin ikinci dayağı olan Peyğəmbər sünnəsinin də bizə çatması üçün ortaya atılan 12 məsuma ehtiyac iddiası batildir. Şiə kitablarındakı hədislərin heç biri birbaşa məsum imamdan rəvayət edilməmişdir.

Peyğəmbərdən nəql edilən səhih hədislər isə Quran kimi yenə məhz Əhli-sünnə alimləri tərəfindən çatdırılmışdır.

Onu da qeyd edək ki, Böyük şiə alimi Mufiddən sonraki şiələrin, Allahın ad və sifətləri barəsində üzərində olduqları Mötəzilə əqidəsi də - imamlardan, Əhli-beytdən yox - Cəhm İbn Safvandan, Ata İbn Vasil, Mərisi kimi zındıqlardan götürülmüşdür. Ümumiyyətlə, Əhli-beyt məsum olmasa da, zındıq şiə alimlərinin uydurduqları hədislərdən və ortaya qoyduğu etiqaddan uzaq olmuş, Peyğəmbərin saf sünnəsini yaşayan, öyrədən hörmətli insanlar olmuşdurlar.

Günümüzdəki şiələr də dinlərini məsum imamlardan yox, sağ olan mərceyi muctəhidlərdən təqlid etməklə götürürlər. Müctəhid öldükdə onun fiqhi də ölür və yeni müctəhidə üz tuturlar… Yenə də imamətin birinci qayəsi, Allahın şəriətini məsumlarla ötürmək qayəsi hasil olmur.

## İmamətin ikinci qayəsi, məsum xəlifə iddiası

İndi isə qayıdaq İmamət barədə ikinci iddiaya - Qiyamətə qədər məsum rəhbərə ehtiyac iddiasına. Ümumiyyətlə, 12 imamdan, ancaq Əli (Allah ondan razı olsun) xəlifə olmuş, Həsən isə 6 ay, sonra xəlifəliyi Müaviyəyə təhvil vermişdir. Bu ikisindən başqa, iddia edilən 12 imamdan, faktiki olaraq, gücə, sultanlığa, qoşuna malik olan, İslam şəriətini tətbiq etdirən, İslamı dünyaya yayan xəlifə olmamışdır. 12-ci imam isə qeybdə gizlənərək 1200 illik dünyada baş verən məsələləri, məsum olmayan Abbasi, Əyyubi, Səlçuklu, Osmanlı Əhli-sünnə xəlifələrinin İslamı dünyaya yaymasını, cihad etməsini, İslam şəriətini uca tutmasını izləyir.

[1] Məclisi, Bihərul-Ənvərin müqəddiməsi

Bəziləri gülməli bir iddia ortaya atırlar: guya onlara xəlifəlik verilib, lakin insanlar tabe olmayıblar. Əvvəla verilməsinin dəlili nədir? Sonra Xəlifə - məhz gücü olan, şəriətin əmrlərini tətbiq etmək üçün qüdrəti, qoşunu, köməyi olan şəxslərdir. Peyğəmbərimizin xəlifələri, xüsusi ilə Əbu Bəkr və Ömər məsum olmasalar da, Peyğəmbərin sünnəsinə əməl etdiklərinə görə Allahın köməyinə nail olmuş və İslamı Hindistandan Məraleşə, Yəməndən Azərbaycana qədər yaymışlar. Deməli, dinin qorunması və yayılması üçün məsumluq şərt deyildir. Qüdrəti olmayan, qorxu içində yaşayan və ya qeybdə olub görsənməyən bir xəlifənin ümmətə nə faydası vardır? Bunu Allah niyə istəsin ki?

İmam Rzadan nəql olunur ki, o belə demişdir. Əgər dinin qorunması üçün hansısa məsumun ömrünün uzanmasına ehtiyac olsa idi, bu məhz Peyğəmbərin özü olardı.[1]

Üstəlik, iddianın gülünc tərəfi odur ki, guya Mehdi gəldikdə cəmi 70 il yaşayacaq.[2] Yaxşı, ondan sonra insanların Qiyamət qopana qədər məsum rəhbərləri kim olacaq? Yoxsa onun səhabələri Peyğəmbərimizin (Allahın ona salamı olsun!) səhabələrindən, onun xəlifələri Peyğəmbərimizin xəlifələrindən xeyirli olacaq?

Xomeyni, Xamneyi kimi naiblər, Bizans və Sasani imperiyasını məğlub etmiş, İslam xilafətini şərqə və qərbə genişləndirmiş Əbu Bəkr və Ömərdən xeyirlidir?

Beləliklə, imamətin vacibliyinə, Quran və səhih hədislərdən dəlil tapmayan şiələrin, ən əsas "əqli" iddiaları batildir. Çünki iddia etdikləri kimi, məsumluq nə islam şəriətini, elmini nəql etmək, ötürmək, nə də xəlifəlik üçün şərt deyildir.

Bu zaman ortaya belə bir sual çıxır. Axı məsum olmayan Sistani, Xoyi kimiləri özlərinə elmi rəhbər - Xomeyni, Xamneyi kimiləri xəlifə edən şiələrin məsum imamlar nəylərinə lazımdır? Cavab odur ki, Məkkə müşriklərinin Allahla öz aralarında götürdüyü, dua etdiyi vasitəçi ilahlar kimi, onlar da imamları vasitəçi-şəfaətçi ilahlar götürmüşlər. Allaha dua etməyi tərk edib, imamlara dua etməyə üz tutmuşlar. Xristianlar özlərinə İsanı, Məryəmi ilah etdiyi kimi, onlar da 12 məsumu ilah etmişlər. Yaxşı belədirsə niyə bu say cəmi 12-dir? Axı bütün ölüb keçmiş Peyğəmbərlər məsum idi. 12 yox 124012- i məsum edin. Mələklər də məsumdur. Onları da siyahıya əlavə edin. Sizin məntiqlə, onlardan biri də bəs etməliydi.

Hər şeyi eşidən, qullarına ancaq Ona dua etməyi əmr edən Allah Məkkə müşriklərinin ölmüş salehləri, Peyğəmbərləri, mələkləri və cinləri Allahla öz aralarında vasitəçi etmələrini və onlara yalvarmalarını Quranda qınamış (Zumər 2, Yunus 18), bu əməli heç vaxt bağışlamayacağı şirk adlandırmış, yüzlərlə ayədə isə

[1] Ricəlul Kəşşi səh. 458

[2] Seyyd əs-Sadr "Tarix mə bad əz-Zuhur" səh.616, "İlzəm ən-Nasib" kitabı səh.190

tək Özünə dua etməyi əmr etmişdir. Bu barədə **“Quran işığında Allahdan qeyrisini çağırmağın qadağan olması”**[1] adlı risaləmizi oxumanızı tövsiyyə edirik.

Bütün bu xurafatın İslam dini ilə yaxından uzaqdan əlaqəsi yoxdur.

Növbəti fəsildə isə sizə Quranda imamətə iman üçün heç bir dəlilin olmadığını, dəlil kimi göstərilən ayələrin imamətlə əlaqəsi olmadığını izah edəcəyik, inşəAllah.

[1] https://sunna.az/content?cid=655

# Üçüncü Fəsil

## Quranda İmamətə aid heç bir dəlil yoxdur

Hörmətli oxucu! Artıq ikinci fəsildə, imamların məsumluqlarının vacibliyi haqda irəli sürülən iddialara cavab verdik. Bu fəsildə isə imamətə aid Quranda heç bir dəlilin olmamasına aydınlıq gətirəcəyik.

Uca Allah bir çox ayələrdə Quranın insanları zülmətdən nura çıxaran, müsəlmanların doğru yola yönəlməsi üçün bütün məsələləri izah edən bir kitab olduğunu bildirmişdir.

**“Biz Kitabı sənə hər şey üçün bir izah, müsəlmanlara da doğru yol göstəricisi, mərhəmət və müjdə olaraq nazil etdik.” (Nəhl surəsi, 89-cu ayə)**

Quranda insanın evlilik, boşanma, borc, ticarət, ribanın haram olması, dost və düşmənçilik, ailə münasibətləri, qadınla yaxınlıq ədəbləri, miras, yetim haqları və s. kimi insan məişətinə lazım olan mühüm məsələlər barədə, habelə təqva, əxlaq, səbr, tövbə, yaxşılıq, əfv etmək kimi saleh əməllərə təşviq edən onlarla, hətta yüzlərlə açıq möhkəm ayələr vardır.

Əziz oxucu, gördüyünüz kimi Qurani-Kərimdə hər hansı bir fəzilətli əməl barədə bu qədər ayə varid olubsa, o zaman İman və İslamın ərkanları barədə də daha aydın və daha çox ayələr olmalıdır. Doğrudan da bu belədir. Buna görə də İmanın “Allaha, Axirətə, Mələklərə, Peyğəmbərlərə, Kitablara və Qədərə iman” kimi 6 dayağı barədə, İslamın “Tövhid, Namaz, Oruc, Zəkat, Həcc” kimi 5 dayağı barədə möhkəm, yəni anlamaq üçün başqa dəlilə ehtiyacı olmayan, açıq-aydın yüzlərlə ayələr vardır.

### Şiəliyə görə dinin ən əzəmətli ərkanı olan imamət peyğəmbərlikdən belə üstündür.

Şiəliyə görə guya imamətə iman ərkanı olmadan, digər ərkanlar qəbul olunmaz və bütün əməllərin qəbul olunması bu məsələdən asılıdır. Guya, Allah bütün peyğəmbərlərini və rəsullarını göndərəndə imamət məsələsinə görə onlardan əhd alıb. Məxluqatın, cənnət və cəhənnəmin, yerin və göyün, kürsünün və ərşin yaradılmasında məqsəd, səbəb imamlardır. Şəkk yoxdur ki, həqiqətən, belə olsaydı, imamətlə bağlı çox sayda ayələr nazil olmalı idi.

Onlara ittiham ataraq etiqad etmədikləri bir şeyi danışmaq niyyətimiz yoxdur. Əksinə, onların öz rəvayətlərindən və sözlərindən sitat gətirərək dediklərimizin doğru olduğunu görəcəksiniz.

İmam Rzanın adından uydurduqları hədisdə, guya Adəm Allahdan ondan daha şərəfli məxluqat yaratması haqqında soruşur. Bu zaman Allah onun nəfsində olanları bilir və ona belə söyləyir: *"Ey Adəm, başını qaldır və Ərşimin kənarına bax!" Adəm başını qaldırdı və Ərşin kənarına baxdı. Orada bu yazını gördü*: *"Allahdan başqa haqq məbud yoxdur, Muhəmməd Allahın Rəsuludur, Əli ibn Əbu Talib möminlərin əmiridir, xanımı Fatimə aləmdəki qadınların ən hörmətli olanıdır, Həsən və Hüseyn cənnət cavanlarının ağasıdır".* Sonra guya Allah Adəmə onların Adəmdən daha xeyirli olduğunu, Adəmi, Cənnəti və Cəhənnəmi onlara görə yaratdığını bildirir. Adəm və Həvva Əliyə və Fatiməyə həsəd apardıqları üçün şeytan onların üzərinə musallat olur və onlar qadağan olunmuş meyvədən yeyərək Yer üzünə qovulurlar."[1]

Başqa bir şiə hədisində guya Cəfər demişdir: "*Kəbənin Rəbbinə and olsun ki, Musa ilə Xıdırın arasında olsaydım onlardan daha elmli olduğumu xəbər verərdim. Onların bilmədiklərini onlara bildirərdim.*"[2]

Bu haqda rəvayətlər olduqca çoxdur, hamısını bu məqamda burada qeyd etmək mümkün deyil. Lakin əlavə məlumat almaq istəyənlər üçün onların öz kitablarından bəzi fəsillərin adlarını qeyd edək:

Fəsil: İmamların bütün peyğəmbər və məxluqatdan üstün olmaqları[3]

Fəsil: Onlar bütün peyğəmbərlərdən elmlidirlər[4]

Fəsil: Onlarda bütün peyğəmbər və mələklərin elmi var[5]

Fəsil: Peyğəmbərlərin duası onlarla təvəssül və şəfaət diləməklə qəbul olunur[6]

Fəsil: Onlar ölüləri diriltməyi, kor və cüzəm xəstəliyinə tutulanları sağaltmağı və peyğəmbərlərin bütün möcüzələrini bacarırlar[7]

Böyük şiə alimi əs-Saduq öz kitabında belə deyir: "*Hər kəsə etiqad etmək vacibdir ki, Allah bütün məxluqatı Muhəmməd və onun Əhli-beytinə görə yaradıb, onlar*

---

[1] Uyunu-l-Əxbər, səh.170. Bihəru-l-Ənvar, 11/164, 16/362. Məani-l-Əxbər, səh.42.
[2] əl-Bəsair, səh.63. Bihəru-l-Ənvar, 13/300
[3] Bihəru-l-Ənvar, 26/267
[4] Bihəru-l-Ənvar, 26/194. əl-Bəsair, səh.227-231
[5] Bihəru-l-Ənvar, 26/159. əl-Bəsair, səh.109-120
[6] Bihəru-l-Ənvar, 26/319
[7] Bihəru-l-Ənvar, 27/29. əl-Bəsair, səh.269-274

*olmasaydılar, Allah nə göyləri, nə yeri, nə cənnəti, nə cəhənnəmi, nə Adəmi, nə Həvvanı, nə mələkləri, nə də digər məxluqatı yaratmazdı."*[1]

Nemətullah Cəzairi demişdir: *"İmamət peyğəmbərlik və risalət dərəcəsindən üstündür."*[2]

Lakin biz Qurani-Kərimdə yüzlərlə yerdə peyğəmbərlərin zikr olunmasını görürük. Hətta Quranda 30-a yaxın peyğəmbərin adı zikr edilmişdir. **Bəs niyə, guya peyğəmbərlərdən üstün olan imamlar haqqında, Quranda bircə ayə belə keçmir?** Bu əslində bu məsələnin uydurma olmasına qəti dəlildir. Şiə alimləri onlara bu barədə verilən sualların qarşısında aciz qaldıqlarına görə 4 cavab üslubuna əl atmışlar və hər üslub üçün də müxtəlif hədislər uydurmuşlar.

## Birinci cavabları: Guya İmamət Quranda yox, hədislərdə keçir

Bu barədə belə bir hədis uydurmuşlar. Əbu Bəsir İmam Cəfərə belə dedi: "İnsanlar deyirlər ki, nəyə görə Allah Quranda Əli və onun Əhli-beytininin adların çəkməyib?" O, belə cavab verdi: *"Onlara deyin ki, Allah Rəsuluna (Allahın ona və ailəsinə salavatı və salamı olsun) namaz haqqında ayə nazil oldu, amma 3 və ya 4 rükət olsun deyilmədi. Nəhayət, Allah Rəsulu bunu özü təfsir edərək bildirdi. Ona zəkat haqqında ayə nazil oldu, amma deyilmədi ki, 40 dirhəmdən bir dirhəm çıxarılsın. Nəhayət, o özü bunu təfsir edərək bildirdi..."* Sonra imaməti qeyd elədi və dedi ki, bunu peyğəmbər sünnədə bildirib.[3]

Ümumiyyətlə, bu cavabın birinci hissəsi ilə, yəni Quranda imamət barədə, imamların adları barədə heç nə bildirilməməsi ilə razıyıq. Lakin bunun, namazın, zəkatın təfsilatı kimi, hədislərdə olmasına etirazımız var. Əvvəla imamət məsələsi namaz və zəkatdan böyük məsələdir, iman məsələsidir. Quranda namazın və zəkatın vacib olmasının açıq-aydın bildirilməsinə, hətta müəyyən təfsilatının olmasına baxmayaraq, Quranda imamətə iman barəsində bircə möhkəm ayə belə yoxdur. Belə ayə olsaydı, təfsilatının sünnədə olması barədə iddiaya göz yumardıq, lakin sünnədə də bu barədə bircə dənə səhih hədis yoxdur.

**Şiəliyə görə Peyğəmbərlik imamətdən aşağı dərəcədə olsa da, onlar barədə yüzlərlə açıq ayə var, hətta adları belə qeyd edilib. Bəs nəyə görə peyğəmbərlikdən üstün olan imamlar barəsində ayə olmasın ki?**

---

[1] Etiqad əs-Saduq, səh.106. Biharu-l-Ənvar, 26/297
[2] Vədaiyu en-nubuvvə 144
[3] əl-Kəfi, 1/286. Bihər-l-Ənvar, 35/211

Bu suallara cavab tapa bilmədikləri üçün, buna zidd digər cavabları verməyə çalışıblar:

## İkinci cavabları: Bəzi ayələri yozaraq imamət haqqında olduğunu dedilər.

Bu cavab üçün də uyğun hədislər uydurdular.

Guya Cəfər əs-Sadiq *"Bismilləhi-r-Rahməni-r-Rahim"-in təfsiri haqqında soruşulduqda, əvvəlki hərifləri yozduqdan sonra deyir: "Ləm hərfi məxluqatın bizim vilayətə tabe olmasını bildirir. Hə hərfi isə Muhəmmədə və onun Əhli-beytinə müxalif olanların rəzilliyini bildirir.."*[1]

Bu üslub birinci üsluba zidd olması ilə yanaşı, yenə də onlara kömək etmədi. Çünki imamət kimi etiqadi məsələyə bu cür aciz üslubla cavab vermək, Quranda bu məsələyə möhkəm, müstəqil ayənin olmamasının etirafı idi. Üstəlik, yozmaq üçün uydurduqları hədislərin də, zəifliyi, münkərliyi danılmaz faktdır.

Həmçinin, onlar Quranda keçən imam sözlərini imamətə dəlil kimi göstərirlər.

İmam sözünün mənası - öndər, örnək deməkdir. Məsələn, Bəqərə surəsi 124-də Allahın İbrahim peyğəmbəri imam etməsini, imamətə dəlil göstərirlər. Halbuki, İbrahim peyğəmbərin imamlığı özündən sonrakı bütün peyğəmbərlərə örnək olmasıdır. Ona görə də, Ənam surəsi 161, Nəhl surəsi 123 kimi ayələrdə Muhəmməd Peyğəmbərə İbrahim millətini - İbrahimi örnək götürmək buyurulur. Allahın salavatı və salamı onların üzərinə olsun!

Ənbiya 73, Qasas 41, Səcdə 24 ayələrindəki "İmamlar" sözlərini də 12 imam anlayışına dəlil gətirməyə çalışırlar. Bu ayələrdən əvvəlki ayələri oxuduqda, Ənbiya 73-də söhbətin Lut, İshaq və Yaqub peyğəmbərlər haqda, Səcdə 24-də isə bəni israildən çıxacaq peyğəmbərlər haqda olması bəlli olur.

Təbii ki, Peyğəmbərlər insanların imamları, öndərləridir. Eyni qaydada, Qasas 41-də Allah, Firon və dəstəsini cəhənnəmə çağıran imamlar adlandırır. Ona görə də, İsra surəsi 71-ci ayədə bütün insanların öz imamları, öndərləri ilə çağırılacaqları bildirilir. Od əhli Firon kimi zəlalət imamları ilə, möminlər isə peyğəmbərlər və salehlərlə birgə çağırılacaq.

Dəlillərindən biri də, Əhzab surəsi 33-dəki "Ev əhli" sözüdür. Surəni, öncəki və sonrakı ayələri oxuyan hər bir kəs, söhbətin Peyğəmbərin ailəsi, xanımları haqda olmasını asanlıqla başa düşür. Hud surəsi 73-də də ev əhlinin, İbrahim

[1] ət-Tövhid, səh.230. əl-Burhan, 1/44. Biharu-l-Ənvar, 85/51

peyğəmbərin zövcəsi olması açıq-aydın bildirilir. Oxuculara ayələri Quranda tapıb oxumalarını tövsiyyə edirik. Dediklərimizin haqlı olmasını öz gözünüzlə görəcəksiniz.

Hədislərdə də, Əhli-beytə Peyğəmbərin əmilərinin, əmisi öğullarının, nəvələrinin, onların zürriyətinin daxil olduğu[1] keçmişdir ki, yüzlərlə, minlərlə insan beləcə Əhli-beytə nisbət olunur. Bunun 12 imam məsələsinə, imamətə heç bir dəlaləti yoxdur. Bu cavab da Quranda imamətə dəlil olmadığını əslində sübut edir.

## Üçüncü cavabları: Dəlil olaraq bəzi ayələrin nazil olması (enməsi) səbəbləri ilə bağlı sünnədə gələn hədisləri imamətə dəlil gətirirlər.

Bu üslub əvvəlki üslublardan daha yüngüldür.

Lakin bu üsluba əl atmaq, yenə də Quranda imamət barədə müstəqil möhkəm ayələrin olmamasının etirafıdır.

Daha sonra, Quran ayələrinin enmə səbəbləri, ayəni təkcə həmin şəxslə bağlı etmir. Çünki ayədə əsas fayda onun ləfzinin ümumu əhatə etməsidir, xüsusi səbəblər deyil. Xüsusi səbəb o ümuma daxil olan hər hansı bir fərd barəsindədir. Məsələn, Bəqərə surəsi 187-ci ayədə, Ramazan gecələri yeyib-içmək və həyat yoldaşına yaxınlıq etmək barədə hökmlər, müəyyən səhabələrin çətinlik çəkməsi ilə bağlı ensə də, ayənin hökmü Qiyamətə qədər bütün müsəlmanlara aiddir.

Həmçinin, bilmək lazımdır ki, ayələrin imamətlə bağlı enməsi barədə hədislərin hamısı ya uydurma, ya da zəif hədislərdir. Hətta heç o uydurulmuş hadisənin özünün imamətlə heç bir əlaqəsi yoxdur. Gəlin bəzi misallara baxaq.

**"Bu gün kafirlər (sizi) dininizdən (döndərməkdən) əllərini üzdülər. Onlardan qorxmayın, Məndən qorxun. Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və bir din olaraq sizin üçün İslamı bəyənib seçdim". (Maidə surəsi 3-cü ayə)**

Şiələr bəzi hədislər uyduraraq bu ayənin imamət barədə endiyini deyirlər. Halbuki, bu ayə islam barəsindədir.

**"Ey Elçi! Rəbbindən sənə nazil ediləni təbliğ et! Əgər (belə) etməsən, Onun göstərişini (sənə tapşırdığı elçilik vəzifəsini) yerinə yetirmiş olmazsan. Allah səni insanlardan qoruyar. Şübhəsiz ki, Allah kafir tayfanı doğru yola yönəltməz." (Maidə surəsi 67-ci ayə)**

---

[1] Buxari 2907, Əhməd 18464

Guya bu ayə Əli ibn Əbu Talib barəsində enib. Halbuki, burada da yenə İslamdan söhbət gedir.

Və beləcə digər ayələri də misal olaraq gətirmək olar. Sən, ey oxucu, görürsən ki, bu ayələrin heç birində nə Əli ibn Əbu Talibin, nə də imamların adları keçir. Nə də ki, imamətdən bəhs edilir.

**Sizin himayədarınız yalnız Allah, Onun Elçisi və iman gətirənlərdir. Onlar Allaha boyun əyərək namaz qılır və zəkat verirlər! (Maidə surəsi 55-ci ayə)**

Bu ayənin də Əli barəsində endiyini söyləyirlər. Ayədəki vəli sözünü xəlifə kimi yozurlar. Halbuki, 51-ci ayədən 57-ci ayəyə qədər mövzu himayədar, dost tutmaq barədədir. Həmçinin, ayə ümumidir, təkcə Əli yox, bütün möminlər barəsindədir. Üstəlik, ayənin Həzrət Əli barəsində enməsini göstərən bircə dənə də səhih hədis yoxdur. Lap səhih hədis olsaydı belə, ayə yenə imamət anlamına dəlalət etmir.

Əziz oxucu! Gördüyünüz kimi, şiə alimlərinin Quranda imamətə dəlil axtarmaq cəhdləri çox cılızdır və onlar bunu əsaslandıra bilmirlər. Buna görə də onlar dördüncü, onları küfrə salan bir cavaba əl atmışlar. Bu da əlimizdəki Quranda imamətə dəlilin olmamasını etiraf edərək, Quranın naqis, təhrif edilmiş bir kitab olmasını, guya oradan imamət barədə ayələrin çıxarılmasını iddia etmələridir. Allaha inanan, kitabına inanan bir müsəlman bunu heç vaxt qəbul etməz! Ona görə də bu risalənin davamında, onların Qurana böhtan atdıqlarını isbat edəcəyik və cavabımızı verəcəyik. Vicdan sahibi hər bir kəs Quranda əsası olmayan bir etiqadın yalnış olmasını mütləq etiraf edəcəkdir.

## Dördüncü cavabları: Quranın təhrif edildiyini iddia edirlər.

Hörmətli oxucu, sizə məhz elə şiə kitablarına istinad edərək, onlara görə imamətin dinin ən böyük ərkanı olmasını çatdırmışdıq. Quranda daha kiçik məsələlərə aid qəti, möhkəm ayələr olduğu halda, niyə imamətə dəlil yoxdur sualına verdikləri 3 cavabın da batil olmasını isbat etmişdik. Burada isə onların 4-cü ən təhlükəli cavablarını təqdim edirik.

Bu cavabları çox təhlükəlidir, insanı kafir olmaq və islam millətindən çıxartmaq kimi çox təhlükəli bir həddə aparır. Bu cavab sahibləri Quranda İmamətə aid dəlilin olmamasını və İmamət kimi məsələyə Quranda açıq dəlillərin labüd olmasını etiraf etmişlər, lakin bu batil əqidəni isbat etmək üçün Allahın kitabına tənə etmişlər. Quranı Tövrat və İncil kimi təhrif olunmuş kitab adlandırmışlar. Halbuki, Uca Allah Quranı Qiyamətə qədər qoruyacağını vəd etmişdir.

**“Şübhəsiz ki, Zikri Biz nazil etdik, əlbəttə, Biz də onu qoruyacağıq.” (Hicr surəsi, 9-cu ayə)**

Bu üslub sahibləri deyirlər ki, əlimizdə olan bu Quran Muhəmmədə (Allahın ona və ailəsinə salavatı və salamı olsun) nazil olan Quran deyil və əlimizdə olan bu Qurandan çoxlu sayda ayələr silinib. Nəinki ayələr, guya imamətdən, Muhəmməd ailəsindən bəhs edən, möminlərin əmiri olan Əli ibn Əbu Talibin adı keçən surələr belə silinib. Həmçinin, deyirlər ki, Qurandan mühacir və ənsarların rüsvayçılıqlarından bəhs edən ayələr silinib. Olduğu kimi nazil olan Quranı Əli ibn Əbu Talib toplayıb, miras olaraq imamlara keçib və indi də Mehdinin əlindədir, zühur etdiyi zaman ortaya çıxardacaq.

## Quranın “təhrif edilməsi” barədə uydurma şiə hədisləri

Bu iddialarını də imamların dilindən uydurduqları rəvayətlərlə dəstəkləməyə çalışmışlar. Məsələn, İmam Baqirin rəvayəti kimi. Guya O, belə deyib: *"Kim desə ki, Quranı nazil olduğu kimi cəm edib, bilin ki, o yalançıdır. Quranı nazil olduğu kimi cəm edib qoruyan Əli ibn Əbu Talib və ondan sonra gələn imamlar olublar."*[1]

Həmçinin, başqa bir rəvayətlərində bildirilir ki, *Peyğəmbər vəfat etdikdən sonra guya Əli Quranı toplayıb, Əbu Bəkr və Ömərin yanına gəlir, onlar da orada səhabələri rüsvay edən ayələri görüb Əlini öldürtmək istəyirlər və Zeyd ibn Sabitdən bu gün əlimizdə olan Quranı toplamağı tələb edirlər. O da, bildirir ki, Əlidəki Quran üzə çıxsa rüsvay olacaqlar. Sonra Ömər öz xilafəti dövründə Əlini aldadıb o kitabı almaq istəyir, lakin Əli bildirir ki, onu Əbu Bəkrə və Ömərə hüccət qalxsın deyə və habelə Qiyamət günü: "Biz ondan qafil idik" – deməmələri üçün gətiribmiş. Sonra bildirir ki, Quranı gizlədib və övladlarından Qaim (Mehdi) onu zühur edəcək. Beləcə şəriət bu minvalla davam edəcək.*[2]

Başqa Rəvayətdə deyilir ki, guya Mehdi zühur etdiyi vaxt Quranı oxuyacaq və müsəlmanlar belə deyəcəklər: *"Vallahi bu Muhəmmədə nazil olan Qurandır. O Quran ki, dəyişdirilib və təhrif olunub. Onu dəyişdirənə və təhrif edənə Allahın lənəti olsun!"*[3]

Şiələr belə iddia edirlər ki, Quranın dördə birində imamət və imamların, qalan hissəsində isə onların düşmənlərinin zikri keçir. Guya İmam Baqirdən belə rəvayət olunur: *"Quran dörd hissədə nazil olmuşdur: bir hissəsində bizim düşmənlərimiz,*

---

[1] əl-Bəsair, səh.137.Biharu-l-Ənvar, 92/48. əl-Kəfi, 1/228
[2] əl-İhticəc, səh.155. Biharu-l-Ənvar, 92/42
[3] Faslu-l-Xitab, səh.99, 239. Məhəccətu-l-Uləmə, səh.140

*ikinci hissəsində biz, üçüncü hissəsində bizdən əvvəlkilər və misallar, dördüncü hissəsində isə fərzlər və əhkamlar qeyd olunur.”*[1]

## Şiə kitablarında yüzlərlə “dəyişdirilmiş” ayələr

Həmçinin, Şiə kitablarında **yüzlərlə** rəvayətdə guya dəyişdirilən ayələr açıq-aydın qeyd edilməkdədir. Onlardan bəzilərini zikr edirik.

Guya İmam əl-Baqir demişdir: "*Cəbrayıl bu ayəni peyğəmbərə belə nazil etmişdir:*

*"**Muhəmməd ailəsinin haqqına** zülm edənlər özlərinə deyilən sözü başqası ilə dəyişdilər. Biz də **Muhəmməd ailəsinin haqqına** zülm edənlərə etdikləri günaha görə göydən əzab göndərdik."*[2]

Əziz oxucu, əslində isə, bu ayə belədir: **"Zülm edənlər özlərinə deyilən sözü başqası ilə dəyişdilər. Biz də zülm edənlərə etdikləri günaha görə göydən əzab göndərdik." (Bəqərə surəsi 59-cu ayə)**

Guya Cəfər əs-Sadiq demişdir: *"Bu ayə peyğəmbərə belə nazil olmuşdur: "Əgər onlar **Əli haqqında** özlərinə verilən öyüd-nəsihətlərə əməl etsəydilər, əlbəttə, bu, onlar üçün daha xeyirli və daha mükəmməl olardı."*[3]

Əslində isə, ayə belədir: **"Əgər onlar özlərinə verilən öyüd-nəsihətlərə əməl etsəydilər..." (Nisa surəsi, 66-cı ayə)**

Başqa hədisdə guya belə demişdir: *"Cəbrayıl bu ayəni belə nazil edib: "Lakin insanların çoxu **Əlinin vilayətində** yalnız küfrü seçdi."*[4]

Əslində isə, ayə belədir: **"Həqiqətən, Biz bu Quranda insanlar üçün bir çox məsəl çəkib müxtəlif şəkildə bəyan etdik. Lakin insanların çoxu küfrü seçdi." (İsra surəsi, 89-cu ayə)**

## Quranın təhrif edildiyini iddia edən yüzlərlə şiə alimi

Şiə alimləri ta qədimdən indiyə qədər Quranın təhrif olunması etiqadındadırlar və bunu açıq-aydın söyləyirlər. Gəlin onların bu haqda olan yüzlərlə sözlərindən bəzilərini zikr edək.

Əl-Kəşəni öz təfsir kitabında Quranın təhrif olunmasına dəlalət edən bəzi rəvayətləri qeyd edəndən sonra belə demişdir: *"Əhli-beyt yolu ilə gələn bu və digər*

---

[1] Faslu-l-Xitab, 158,247. əl-Kəfi, 2/627-628. Bihəru-l-Ənvar, 24/305
[2] əl-Kəfi, 1/424. əs-Safi, 1/136. əl-Qummi, 1/248
[3] əl-Kəfi, 1/417,424. əl-Burhən, 1/391. Bihəru-l-Ənvar, 23/303
[4] əl-Burhən, 2/445. Faslu-l-Xitab səh.304,316

*rəvayətlərdən çıxan fayda odur ki, əlimizdə olan Quran Muhəmmədə nazil olan Quranın tamamı deyil. Əksinə, onda nazil olana müxalif olan ayələr vardır. Həmçinin, onda dəyişdirilmiş, təhrif olunmuşlar vardır. Həmçinin, ordan bir çox şeylər silinib. Bir çox yerlərdən Əlinin adı silinmişdir. Eləcə də Allah və Rəsulunun razı qalmadığı bir şəkildə tərtib olunmuşdur."*[1]

Bu kitabın başqa yerində Quranın dəyişdirilməsindən danışdıqdan sonra belə demişdir: *"Bu təqdirlə Qurandan heç bir şeyə etimad edə bilmərik. Çünki ehtimal olunan odur ki, onda olan bütün ayələr dəyişdirilib, təhrif olunub, nazil olanlara da müxalifdir. Beləcə Quranda əslən bizim üçün bir hüccət qalmayıb və onun faydası, ona tabe olmaq əmrinin faydası, ondan bərk yapışmaq vəsiyyəti aradan qalxır."*[2]

Əl-Məclisi Əl-Kəfinin şərhində, Hişam ibn Səlimin Cəfər əs-Sadiqdən etdiyi rəvayətin şərhində belə deyib: *"Cəfər as-Sadiqin "Şübhəsiz ki, Cəbrayılın Muhəmmədə gətirdiyi Quran 17000 ayədir" – xəbəri səhihdir. Heç kəsə gizli deyil ki, bu və digər səhih xəbərlər Quranın naqis və təhrif olunması haqqında açıq-aydındır. Mənə görə də bu fəsildə olan xəbərlər mənaca mütavatirdir. Bu xəbərlərin hamısını rədd etmək, ümumiyyətcə, xəbərlərə etimad etməyi aradan qaldırır. Əksinə, zənnimcə, bu haqda olan xəbərlər imamət haqqında olan xəbərlərdən az deyil. O zaman imamət xəbərlərini isbat edənlər, bu xəbərləri (imaməti) necə isbat edirlər?!"*[3]

Həmçinin, belə deyib: "Osman bu Qurandan üç şeyi pozub: *"Möminlərin Əmiri olan Əlinin və Əhli-beytinin fəziləti haqqında olanları, Qureyşin və üç xəlifənin məzəmmətini. Misal olaraq Allahın bu ayəsi kimi: "Kaş ki, Əbu Bəkri özümə dost tutmayaydım!"*[4]

Şeyx Mufid belə deyib: *"İmamilər ittifaq ediblər ki, zəlalət imamları bir Quranın kitaba yazılması zamanı çoxlu müxaliflik etdilər, Quranın vacibindən və peyğəmbərin sünnətindən azdılar."*[5]

Əl-Amili,[6] Əl-Bəhrani,[7] Ət-Tahrani[1] kimi şiə alimləri Quranın təhrifi barədə şiə alimlərinin ittifaq etməsini və bunun şiə əqidəsinin zəruriyyətlərindən olmasını söyləmişlər.

---

[1] Təfsiru-s-Safi, 1/49
[2] Təfsiru-s-Safi, 1/54
[3] Mirətu-l-Uqul, 12/525. Faslu-l-Xitab, səh.353
[4] Təzkiratu-l-Əimmə, səh.9
[5] Əvailu-l-Məqalət, səh.48. Faslu-l-Xitab, səh.30
[6] Mirətu-l-Ənvar, səh.36
[7] əl-Hədəiq ən-Nadira, 8/10

Ən-Nuri Ət-Tabarasi bu məsələ ilə bağlı müstəqil bir kitab yazmışdır. Bu kitabı da "Aləmlərin Rəbbinin kitabının təhrif olunmasının isbatında yekun xitab" adlandırıb."[2]

Təxminən 400 səhifəlik bu kitabda Quranın təhrif olunması ilə bağlı yüzlərlə rəvayətləri qeyd edib.

Müasir alimlərdən Əl-Xoi,[3] Xomeyni kimiləri də Quranın təhrif olunduğunu iddia ediblər. Xomeyni səhabələrin, Əlinin xilafəti barədə ayələri dünya naminə Qurandan çıxardıqlarını iddia edib.[4]

Qurana, İslama qəlbində hörmət olan bir kəsin bu sözü deyənlərlə razı olması mümkünsüzdür. Əsl Quranın 1250 ildir ki, mağarada gizlənən Mehdidə olması iddiasına gəlincə, bunun batil olmasını artıq ikinci fəsildə isbat etdik. Niyə Uca Allah insanları zülmətdən nura çıxarmaq üçün göndərdiyi bir kitab mağarada gizlədilsin? Bunun ümmətə faydası nədir? Bu suallara cavab vermək, təbii ki, mümkünsüzdür.

## Əhl-Sünnənin nəsx barədə sözlərini təhrif kimi qələmə vermək cəhdləri və nəsxi isbat edən şiə alimləri

Bu məqamda onu da qeyd edək ki, Şiələr Əhli-sünnədən Quranda tilavəti nəsx olunmuş ayələr barədə nəql etdikləri rəvayətləri, bu eyibdən yaxa qurtarmaq üçün istifadə etməyə çalışırlar. Gah iddia edirlər ki, Şiə alimlərinin təhrif barədə sözləri elə nəsx barəsindədir. Gah da elə Əhli-sünnənin təhrifi qəbul etdiklərini iddia edirlər. Bu iddiaların hər ikisi batildir. Çünki əlimizdə olan Quranın 10 mötəbər qiraəti günümüzə qədər məhz Əhli-sünnə qariləri tərəfindən nöqsansız olaraq əzbər yolu ilə nəql edilmiş və Əhli-sünnə alimlərinin ittifaqı ilə Quranda bircə hərfin belə təhrif edildiyini deyənin kafir olması bildirilmişdir.

Həmçinin, Nəsx ilə təhrifin arasında əsas fərq odur ki, tilavətin nəsxi, Peyğəmbərin dövründə, elə Onun əmri ilə baş vermişdir. Təhrif isə, bayaq oxuduğumuz şiə alimlərinin sözlərindən də bəlli olduğu kimi, guya bu Peyğəmbərin vəfatından sonra səhabələr tərəfindən baş vermişdir.

Lakin şiələr unudurlar və ya gizlədirlər ki, Quranda nəsxin olması elə Quran ayələri və səhih hədislərlə varid olmuşdur.

---

[1] Məhəccətu-l-uləmə fi-l-ədilləti-l-əqliyyə. Muhəmməd Hədi ət-Tahrani
[2] Faslu-l-Xitab fi isbəti təhrifi kitabi rabi-l-ərbəb, səh.2
[3] əl-Bəyən fi təfsiri-l-Quran, səh.226
[4] Kəşfu-l-Əstər, səh.114

Üstəlik, bunu təhrif kimi qələmə verənlər indi adlarını zikr edəcəyimiz şiə alimlərinin tilavətin nəsxini qəbul etdiklərini və bunu təhrifdən fərqləndirdiklərini unudurlar.

1. Şeyx Əbu Əli Fədl Ət-Təbərsi[1]

2. Əbu Cəfər Muhəmməd Ət-Tusi[2]

Həmçinin, Ömərdən rəvayət olunan Rəcm ayəsi hədisini öz kitabında qeyd edir: "Əgər mən insanların Ömər Qurana artırma edib deməsindən qorxmasaydım, Rəcm ayəsini Quranın haşiyəsinə yazardım."[3]

3. Kəmaləddin AbdurRahmən əl-Hilli[4]

4. Əl-Feyz Əl-Kəşəni[5]

5. Əl-Qutb Ər-Ravandi[6]

6. Alləmə Hilli[7]

7. Muhəqqiq Əl-Kərki[8]

8. Əs-Seyyid Əl-Murtəza[9]

9. Seyyid Muhəmməd Cəvad əl-Amili[10]

10. Əl-Bəhrani[11]

11. Şiə məzhəbində 12 İmamdan biri hesab olunan Muhəmməd ibn Əli ibn Musa[12]

12. Əl-Xoi[13]

13. Babayov Əl-Qummi[14] (Şeyx Saduq)

15. Əl-Əyyaşi[1]

---

[1] Əl-Məcmuul bəyan fi-Təfsiril Quran kitabında cild 1, səh. 338. Bəqərə 106-nın təfsiri
[2] Ət-Tibyən kitabının müqəddiməsində cild 1, səh. 12. Bəzi nüsxələrdə 394-cü səhifə
[3] Əl-Xilaf kitabı, cild 5, səh. 366
[4] Ən-Nəsx və Mənsux kitabı səh. 35
[5] Təfsir-Əssafi kitabı cild 3, səh. 414. Bəqərə 106-nın Şərhi, Əl-Vafi əsərində cild 1, səh. 274 Tilavətin nəsxini təsdiqləyir
[6] Fiqhul-Quran kitabı cild 1, səh. 204
[7] Təhrirul-Əhkam köhnə nəşr cild 1, səh. 11, yeni nəşr cild 1, səh. 83. Təhzibul-Əhkəm cild 10, səh. 3
[8] Cəmiul Məqasid kitabı cild 1, səh. 271
[9] Əz-Zəria əsəri cild 1, səh. 428-429. Oxunuşun qalıb hökmün nəsx edilməsi, hökmün qalıb oxunuşun nəsx edilməsi barədə fəsil
[10] Miftəhul Kəramə kitabı cild 3, səh. 96
[11] Hədaiqun Nəzira kitabı cild 2, səh. 125
[12] Biharul-Ənvar cild 4, səh. 116, bab 3, rəvayət 42
[13] Əl-bəyan fi-Təfsiril Quran cild 1, səh. 285
[14] İləluş-Şərai cild 2, səh. 540

16. Əli ibn İbrahim Əl-Qummi[2]

17. Əl-Hurr Əl-Amili[3]

18. Yaqub Əl-Kuleyni[4]

19. Allamə Məclisi[5]

Göründüyü kimi, Quranın təhrif olunmasını iddia etməklə, Quranda imamətə dəlilin olmamasını iddia edən şiələr ən təhlükəli yolu tutmuşlar və Allahın kitabına dil uzatmaqla öz batil əqidələrini isbat etməyə çalışmışlar.

Əziz oxucu! Xülasə, sən də gördün ki, şiə əqidəsinin ən əsas ərkanlarından olan imamətin Qurandan heç bir nəsibi yoxdur. Biz də etiqad edirik ki, Uca Allah İslamın bütün əsas məsələlərini Quranda bəyan etmişdir. Hətta heyzli qadının hökmünü belə bəyan etmişdir.

**"Səndən heyz barəsində soruşurlar. De: "Bu, əziyyətverici bir haldır. Heyz vaxtı qadınlardan (cinsi əlaqədən) kənar olun və pak olmayınca onlarla yaxınlıq etməyin." (Bəqərə surəsi 222-ci ayə)**

Amma şiələrə görə iməmət kimi əzəmətli bir məsələ barədə bircə ayə belə yoxdur. **Məgər heyzin əziyyəti Allah yanında müsəlmanların əziyyət çəkməsindən daha şiddətlidir?! Hansı ki, imamətin səbəbiylə əsrlər boyu fitnələr, qətllər, ixtilaflar baş vermişdir. Məgər heyzli qadınla yaxınlıq etmək, Allah qatında guya Peyğəmbərlikdən üstün imamətdən daha önəmlidir?!**

Quranda Peyğəmbərlərə iman etməyin vacib olması, Onlara iman etməyənlərin kafir olması barədə yüzlərlə ayələr vardır. Hətta onların adları belə dəfələrlə xatırladılır. İmamət kimi guya peyğəmbərlikdən üstün olan əsas niyə Quranda zikr olunmasın? **Dolayısı yolla onlar Allaha dil uzadır, bunu ya unutduğunu, ya gizlətdiyini, ya da bu barədə olan ayələri guya təhrifdən qoruya bilmədiyini iddia edirlər.**

**Həmçinin, Səhabələrin fəziləti, Peyğəmbərin həyat yoldaşlarının iffəti barədə açıq-aydın ayələri, Şirkin qadağan olunması, Allahı duada, ibadətdə təkləşdirmək barədə yüzlərlə açıq-aydın möhkəm ayələri qulaq ardına vuraraq, inkar edirlər. Bu zülm deyilmi? İmamətə dəlil olmadan iman edir,**

---

[1] Təfsirul-Əyyaşi cild 1, səh. 813, rəvayət 401
[2] Təfsirul-Qummi cild 2, səh. 95
[3] Vəsailuş-Şiyə cild 22, səh. 437, cild 28, səh. 62, cild 28, səh. 67
[4] Kitəbul-Kəfi, Əli Əkbər Əl-Xifarinin təhqiqi ilə cild 7, səh. 176, Beyrut çapı, Darul Ədva nəşriyyatı
[5] Rəcm ayəsi ilə bağlı hədisi səhihləşdirir. Miratul-Uqul cild 23, səh. 267

**iman etməyənləri kafir görür, amma qəti dəlili olan məsələləri inkar edirlər...Buna nə ad vermək olar?**

Allah müsəlmanları şərr və fitnə əhlindən qorusun. Haqq yolundan azanları doğru yola yönəltsin. Amin!

# Dördüncü fəsil

# 12 İmam barədə olan şiə hədislərinin acınacaqlı vəziyyəti və şiələrin hədis elmi

Hörmətli oxucu! Bundan öncəki fəsillərdə imamətin həm ağıla uyğun olmadığını, həm də Qurandan buna dəlilin olmamasını isbat etmişdik. Bu fəsildə isə 12 imam etiqadına, habelə bütövlükdə imamət etiqadına guya dəlalət edən şiə hədislərinin acınacaqlı vəziyyəti ilə tanış olacağıq.

Əvvəla onu qeyd edək ki, nəinki imamət movzusunda, hətta digər mövzularda belə şiə alimləri peyğəmbərdən bircə səhih hədis rəvayət etməmişlər. Ən mötəbər şiə kitablarında olan 44 mindən çox hədisin cəmi 640-ı Peyğəmbərdən rəvayət olunmuşdur. Heç biri də səhih deyildir.[1]

Bu rüsvayçılığa cavab verən şiə alimləri, imamların da peyğəmbər kimi məsum olduğunu, imamdan rəvayət olunan hədisin, elə peyğəmbər hədisi kimi imamətə dəlil olmasını iddia ediblər. Dediyimiz kimi, nə Quran, nə də səhih hədislərdən iddiaya dəlil yoxdur.

Dinin qorunması üçün məsumluğu şərt qoyan şiələr, imamla hədisi cəm edən hədis alimi arasındakı 5, 6, 7, 8 nəsil qeyri-məsumları, yalançı raviləri görməməzdən gəlirlər. Peyğəmbərin haqq olması, məsum Quran olmadan isbat oluna bilmədiyi halda, imamın mən imamam deməsi kifayət olmadığı halda, bu cür sözlərin məsum olmayan yalançılar tərəfindən ötürülməsi necə dəlil kimi qəbul oluna bilər?

Bildiyiniz kimi şiələr iddia edirlər ki, 12 imamı guya Uca Allah təyin etmişdir. Guya bütün peyğəmbərlər, 12 imamın adını biliblər və öz ümmətlərinə çatdırıblar.

## “12 İmam” etiqadını isbat etmək üçün şiələrin uydurduğu ən “güclü” hədisin təhlili

Gəlin biz də şiələrin imamların adı ilə bağlı uydurduqları hədislərdən ən “güclüsünü”, mütəvatir, yəni hamı tərəfindən bilinəcək qədər məşhur saydıqları hədisi birgə analiz edək. Şiələrə görə məsum raviləri ekranda yaşıl, məsum olmayan raviləri isə qırmızı çərçivələrdə (bax: Şəkil 5) göstərəcəyik.

---

[1] Bax: Əbu Zeyd Həbibli “Səqəleyn Hədisi” https://sunna.az/documents/uploads/contents/files/SƏQƏLEYN%20-%20İKİ%20AĞIR%20YÜK%20“QURAN%20VƏ%20ƏHLİ-BEYT”%20HƏDİSİNİN%20ŞƏRHİ.pdf

Şiəliyin atası sayılan şiə alimi, əs-Saduq "İkməlud-din va itməmun-nimə" və "Uyunu Əxbərir-Rida" kitablarında aşağıdakı sənədlə, yəni ravilər zənciri ilə belə bir hədis nəql edir:

"Bizə Muhəmməd ibn İbrahim, ona Həsən bin İsmail, ona Əbu Amr və Səid ibn Muhəmməd bin nasr əl-Qattan, ona Abdullah bin Muhəmməd əs-Suləmi, ona Muhəmməd ibn Abdurrahmən, ona Muhəmməd ibn Səid, ona da Abbas əbu Amr rəvayət etmişdir ki, Sadaqa bin əbu Musaya Əbu Bəsra demişdir:

*İmam Muhəmməd Əl-Baqir, ölüm ayağında oğlu İmam Cəfər əs-Sadiqi çağırır və ona (imamət barədə) bir əhd əmanət edir. Bunu görən qardaşı Zeyd ibn Ali belə deyir: "Əgər mənə Həsənin Hüseynə etdiyi əhd kimi imaməti əmanət etsən, hesab edirəm ki, etdiyin iş münkər bir iş olmazdı."*

*İmam Baqir ona deyir: Ey Hüseynin atası (Zeyd), həqiqətən də, əmanət nə gətirdiyin misal üzrə, nə də yazılı vəsiyyətlə ötürülmür. Bu ancaq Uca və Mübarək Allahın əmri üzrə artıq olması keçmişdə müəyyənləşmiş bir işə görədir. Sonra Cabir ibn Abdullahı (səhabəni) çağırdı və ona belə dedi: "O səhifədə gördüyün şeyi bizə anlat."*

*Cabir dedi: "Bəli, ey Cəfərin atası, Həsəni doğulması münasibəti ilə təbrik etmək üçün xanım Fatimənin yanına girdim, əlində ağ büllurdan bir səhifə vardı. Dedim: "Ey qadınların ağası, səndə gördüyüm o nə səhifədir elə?" Dedi ki, burada övladlarımdan olacaq imamların adları yazılıb. Dedim ki, ver ona baxım. Dedi ki, əgər qadağan olmasaydı verərdim, baxardın. Buna ancaq peyğəmbər, vasiy (imam), ya da Əhli-beytimdən biri toxuna bilər. Lakin sənə izn verirəm ki, kənardan baxıb içini görəsən."*

*Cabir davam edir: "Orada gördüm ki, belə yazılıb: Muhəmməd ibn Abdullah Mustafa, anası Əminə, Əli bin Əbu Talib əl-Murtəza" sonra Həsən, Hüseyn, Zeynalabidin anası Şahənşah oğlu fars Yezdəcirin Şahənşah qızı, Baqir, Cəfər..., Nərgiz adlı cariyənin oğlu Mehdiyə qədər bütün 12 imamın adını sayır."*[1]

Haşiyə çıxaraq qeyd edək ki, Əhli-sünnədə hədisin mötəbər olması üçün, (1) hədisi ötürən ravilərin dininə və yaddaşına güvənilən şəxslər olması, habelə (2) hədisin mətnində Qurana, şəriətin zəruri olaraq bilinən mənalarına, daha mötəbər hədislərə müxalifliyin olmaması, (3) hədisin mətnində onu gözdən salacaq ziddiyyətlərin olmaması mühüm şərtlərdir. Bu şərtlər olmadıqda hədis qəbul edilmir.

---

[1] As-Saduq "İkməlud-din va itməmun-nimə", "Uyunu Əxbərir-Rida"

Qayıdaq ən güclü 12 imam hədisinə. Hədisi nəql edən Saduqla, İmam Baqirin arasında 9 təbəqə məsum olmayan insan var. Amma şiələr zənn edir ki, hədislər məsumlardan nəql edilib. Məsələn, Əhli-sünnədə Muvatta kitabını cəm edən Maliklə, həqiqətən, məsum olan Peyğəmbər arasında cəmi iki ravi, Səhabə olan İbn Ömər və Tabiin olan Nəfi vardır. Baqir Peyğəmbərdən üstündür, yoxsa bu 9 təbəqə fırıldaqçı olan ravilər Səhabə və Tabiindən üstündürlər? **Harada qaldı hədisdə məsumluq şərti?**

Üstəlik, Səid bin Muhəmməd əl-Qattandan Əbu Bəsraya qədər olan 9 nəfərdən 6-si barədə heç bir şiə rical-ravilərin avtobioqrafiyası barədə olan kitablarda məlumat yoxdur, yəni məchul şəxslərdir. Bu kənara qalsın, hədisi imam Baqirdən rəvayət edən Əbu Bəsranın özünün nəinki məchul, hətta kəzzəb olma ehtimalı vardır.[1] Bu fakt özü hədis rədd olunmasına kafidir.




*Şəkil 5*

Keçək növbəti tənqidə. Mütəvatirliyi - hamı tərəfdən bilinməsi iddia edilən İmamət məsələsi əgər belə mühüm məsələ idisə, insanlar arasında bilinməli, yayılmalı deyildimi? Necə olur ki, imam ZeynalAbidinin digər oğlu, Əhli-beyt üzvü, həqiqətən də, alim olan Zeydin bu imam adları olan vərəqdən xəbəri yox idi və bu məsələ qardaşı Baqirin ölümünə qədər hamıdan gizlədilirdi. Başqa bir şiə hədisində, Zeyd özünün bilmədiyi halda, imamət məsələsini yayan Şeytan Taq adlı şiəyə belə deyir:

---

[1] Kitəbu- əd Dirayə liş-Şəhid Əl-Səni

*"Bizim bilmədiyimiz halda sən iddia edirsən ki, Muhəmmədin ailəsində imam var? Atam Zeynalabidin yeməyi ağzımızı yandıracağından qorxaraq soyudub verərdi. İmamət məsələsini gizlədibsə, mənim Cəhənnəmdə yanmağımdan qorxmurdu?"*[1] Qeyd edək ki, Zeydi şiələr bu cür hədisləri qəbul etmirlər və onlara görə Baqir yox, məhz Zeyd imam idi.

Həmçinin, Şiələr Cəfərdən sonra, imamətin qayda üzrə böyük oğul olan İsmayıla keçəcəyini etiqad edirdilər. İsmayıl öldükdən sonra guya Cəfər, Allahın bədə etdiyini, yəni qərar dəyişdirdiyini söyləyərək Musanı imam qərar verdiyini bildirir.[2]

Əgər bu səhifədə adlar artıq vardısa, **nə ehtiyac vardı Allahın qərar dəyişdiyini söyləməyə?** Deməli belə bir vərəq yox idi və imamların adları müəyyən olunmamışdı. Ona görə də Cəfərdən sonra şiələr İsmaililərə və Musavilərə bölünürlər. Birinci fəsildə qeyd edildiyi kimi, imamların sayında və adlarında şiələr 30 firqəyə bölünüblər. Belə səhih mütəvatir hədis mövcud olsaydı bölünərdilərmi?

Növbəti gülünc məsələ, tarixə görə İmam Baqirin hicrətdən sonra 110-cu illərdən birində,[3] səhabə Cabirin isə 70-ci illərdə[4] vəfat etməsidir. **Baqir ölüm ayağında, 40 il əvvəl ölmüş Cabiri necə çağırıb?!**

Həmçinin, hədisin mətnində digər münkər, Cabirin Fatimənin yanına gedib təklikdə onu təbrik etməsidir. Çünki bu hədisin digər ləfzlərində, Fatimənin o səhifəni ona sirr kimi verməsi və onun da onu köçürdüyü deyilir.

Bu cür hədislərin, Qurana ziddiyyəti barədə artıq çox danışmışıq. Quranda ümümiyyətlə imamət deyilən şey yoxdur. Bu cür mühüm məsələ Quranda necə olmaya bilər? Quranda imamətə dəlil olsaydı, adlarını hədisdə axtarmaq icazəli olardı. Məsələn, namaz əmri Quranda var, rükətlərin sayını hədisdən öyrənirik.

Həmçinin, Maidə surəsi 67-yə görə Peyğəmbər ona vəhy ediləni çatdırmağa mükəlləfdir, **hədisdə isə guya bütün möminlərin xəlifələrinin adını bəyan edən əhəmiyyətli bir səhifə ancaq bəzi səhabələrə bildirilir**.

12 imama dair ən güclü dəlilləri bu vəziyyətdədirsə, digər hədisləri analiz üçün vaxt itirməyə dəyməz.

---

[1] Kəfi 1/174, Ricalul-Kəşi 186-cı səh
[2] Nobəxti, Firaquş-Şia
[3] Nobəxti, Firaquş-Şia, səh. 82
[4] İbn Abdil-Bərr, İstiyəb, 1/213

## "12 İmamın" adlarının bilinməməsi barədə şiə hədisləri və digər ziddiyyətlər

Həmçinin, hədis elə digər şiə hədislərinə ziddir. Təkcə Kuleyninin Kafisində İmamların adlarının məchul olmasına dəlalət edən 104 hədis vardır. Hədisin mütəvatir, məşhur olduğunu deyənlər məsələn bu hədis barəsində unudurlar.

Guya Əbu Cəfər demişdir: "*Sirrimizi açmayın, işimizi yaymayın*"[1]

Hədisi şərh edən Mazandarani belə demişdir: "*Sirrləri imamət və xilafət məsələsidir.*"[2]

Ümumiyyətlə, imamların sayı qalsın bir kənara, imamət barəsində bir-birinə zidd hədislər şiə kitablarını bəzəməkdədir. Onlardan bəzilərini sizə təqdim edirik.

Guya Cəfər demişdir: "*Allah bizə artıq əvvəl yaşayanlar və sonra gələcək olanlar barədə olan elmi vermişdir". Onda soruşurlar ki, səndə də bu elm varmı? Cəfər dedi: "Vay sənin halına, mən kişilərin belində olanları, anaların bətnində olanları belə bilirəm.*"[3]

İmamların qeybi bilmələri barədə nəinki yüzlərlə hədis uydurulub, hətta bu barədə kitablarında fəsillər açılmışdır.

Bunlara zidd olan başqa bir hədisdə Cəfərə onun qeybi bilməsi barədə söz-söhbətin olması bildirilir. İmam Cəfər belə deyir: "*SubhənAllah, əlini başıma qoy, bütün tüklərim biz-biz oldu. Yox, vallahi, mən ancaq Peyğəmbərdən nəql olunan hədisləri bilirəm. Allahın salamı və salavatı ona olsun.*"[4]

İmamların qeybi bilmələri barədə olan hədislər, Quranda ancaq Allahın qeybi bilməsi, hətta Peyğəmbərlərin qeybi bilməmələri ilə bağlı olan onlarla ayələrə ziddir.

## Şiə kitablarında Qurana, ağıla, qeyrətə zidd olan yüzlərlə hədis

Şiə kitablarında nəinki Qurana zidd, hətta ağıla, qeyrətə zidd yüzlərlə hədis vardır. Bəzilərini təqdim edirik:

Baqirdən və Sadiqdən rəvayət olunur ki, *Peyğəmbər Fatimənin üzünün yan tərəfindən öpməyincə yatmazdı, üzünü də Fatimənin iki döşünün arasına qoyardı.*[5]

---

[1] Kafi 2/222
[2] Mazandarani, Şərhu Cami 9/118
[3] Biharul Ənvar 26/27
[4] Biharul Ənvar 26/102
[5] Bihərul Ənvar, 43/44,78

Guya Baqirin belə dediyi rəvayət olunur: "*Allahın Elçisi (Allahın salavatı və salamı ona olsun) səmaya qalxdığı zaman soruşur: Atam İbrahim haradadır? Ona belə dedilər: "O, şiələrin uşaqları ilə bir yerdədir. Sonra Cənnətə daxil olur. Bir də görür ki, İbrahim ağacın altındadır və onun inəyin döşləri kimi döşləri vardı. Döşü uşağın ağzından çıxdıqda İbrahim ona tərəf gəldi, salam verdikdən sonra Əli barəsində soruşdu. Peyğəmbər də dedi ki, özümdən sonra ümmətimi ona buraxdım. (İbrahim) dedi: Sən elə xəlifəyə buraxmısan. Allah, həqiqətən də, Əliyə itaəti vacib etmişdir. Bunlar isə şiələrin uşaqlarıdır, Allah Azza və Cəllədən onlara baxmağımı istədim və etdim."*[1]

Allahu Əkbər! Ağzınızdan çıxan bu kəlimələr necə də ağırdır. Onlar ancaq yalan danışırlar.

İnək döşlü... İbrahim peyğəmbər şiələrin uşaqlarına tərbiyəçilik edirmiş! Bunu təsdiq edəni Allah rəzil etsin. Bunu danışanı da Allah rəzil etsin.

Şiə kitablarında olan hədislər sənəd baxımından da bərbad vəziyyətdədir. Ağına-bozuna baxmadan hər bir məxluqdan, hətta uzunqulaqdan belə hədis rəvayət etmişlər. Guya Peyğəmbərin uzunqulağı belə deyir:

"*Atam-anam sənə fəda olsun, ey Peyğəmbər! Atam mənə dedi, o da öz atasından rəvayət etdi, o da babasından, o da öz atasından eşitdi ki, o, Nuh peyğəmbər ilə birlikdə gəmidə idi. Nuh əlini onun belinə çəkib dedi: Bu uzunqulağın zürriyyətindən bir uzunqulaq gələcək, sonuncu peyğəmbər onu minəcək...*"[2]

## Şiəlikdə hədis elminin bərbad vəziyyəti

Şiə ravilərinin və şiəlikdə hədis elmi barədə Əbu Zeyd Həbiblinin qələmə aldığı "Səqəleyn hədisi" adlı risaləni oxumağı tövsiyyə edirik.

Bizim tənqidlərimiz bir kənara qalsın, şiə alimləri özləri etiraf ediblər ki, onlarda olan hədislərin əksəriyyəti səhih deyildir. Məsələn, ən mötəbər kitabları olan Kafidə 16000 hədisdən yalnız 5000 hədisin mötəbər olduğunu söyləyirlər.[3]

Bizə görə isə onların istər imamət, istərsə də digər mövzularda bircə dənə də səhih hədisləri yoxdur. Elə bunu böyük şiə alimi Hurr Amili də təsdiqləyir: *"Əgər hədislərimiz (hədis elminin qaydaları əsasında) araşdırılsa, hamısı zəif çıxacaqdır."*[4]

---

[1] Bihərul Ənvar 18/303
[2] Kəfi 1/237
[3] Luluatul Bəhreyn kitabı, səh. 394, Kulliyyətul Şiə elmul rical" səh. 357
[4] Vəsailuş-şiə 30/260

## "12 İmam" etiqadına Əhl-sünnə mənbələrindən hədis axtarma cəhdləri

İmamətə Şiə hədislərində səhih dəlil tapmaqdan əlini üzən bəzi şiələr, çıxış yolu kimi Əhli-sünnənin bəzi səhih hədislərini yozmaqda görürlər. Onlardan ən məşhuru isə 12 xəlifə hədisdir:

Peyğəmbər (Allahın ona salamı olsun!) demişdir: *"Qureyşdən olan, on iki nəfər xəlifənin dövründə İslam izzətli olacaqdır"*.[1]

İddia edirlər ki, bu hədis elə 12 imama dəlildir. Lakin hədis onların əleyhinə dəlildir. Çünki iddia etdikləri 12 imamdan yalnız ikisi xəlifə olmuşdur. Qalanlarının dövründə isə guya imamlar imaməti sirr kimi saxlamış, qorxularından təqiyyə etmiş, xəlifəliyi isə günahkarlar ələ keçirmişdir. **12-ci imam da 1250 ildir ki, qorxudan mağarada gizlənmişdir. Budurmu sizə görə islamın izzətli olması?**

Hədisin özünə gəlincə hədis səhihdir, Qiyamətə qədər Qüreyşdən olan 12 xəlifənin dövründə İslam izzətli olmuşdur və olacaq. Əbu Bəkr, Ömər, Osman, Əli, Həsən, Müaviyə, Ömər ibn Əbdüləziz, Harun ər-Rəşid və digər Qureyşilərin dövründə İslam yer üzərində hakim din olmuşdur, müsəlmanlar izzət sahibi olmuşlar.

Sonra şiələr bəzi şiə alimlərini Əhli-sünnə kimi qələmə verərək onların 12 imam barədə hədislər rəvayət etdiyini iddia etmişlər. Bunlara Qunduzi, Səbt ibni Cəuzi, əl-Kənci, əl-Məsudi kimilərini misal göstərmək olar ki, onların radikal rafizi şiə olmalarını isbat etmək çox sadədir. Üstəlik, nəql etdikləri rəvayətlər də sənədsiz münkər rəvayətlərdir. Şiə mənbələrindən bayaq zikr etdiyimiz hədislər bu hədislərdən daha yaxşı vəziyyətdədir.

Hörmətli oxucu, bu mövzunu saatlarla davam etdirmək olardı, lakin artıq sənə bəlli oldu ki, şiəlikdəki ən mühüm iman ərkanı olan imamət etiqadı, hörümçək toru kimi dağılmağa məhkum, dəlilsiz bir yalandır. Ona görə səni tövbə etməyə, ən azından araşdırmanı başlamağa dəvət edirik ki, qısa zamanda Quran və Peyğəmbərin səhih sünnəsi üzrə olan əsl İslamı yaşaya biləsən. Allahdan bütün xalqımızı doğru yola yönəltməsini istəyirik. Amin.

[1] Müslim 1821

# Mündəricat

**Müqəddimə** .......... 1
**Birinci Fəsil: İmamət nədir? Şiəlikdə və Əhli-sünnədə iman məsələsində əsas fərqlər** .......... 2
12 imam etiqadında olmayana münasibət .......... 3
İmamilik etiqadı nədir? 12 imam etiqadının yaranma mərhələləri barədə qısa məlumat .......... 3
12 imam etiqadını iddia edənlər hansı dəlillərə söykənirlər? .......... 5
**İkinci Fəsil: "Peyğəmbərdən sonra 12 məsum rəhbərə, imama ehtiyac var" deyə ortaya atıla "əqli" iddiaya cavab** .......... 8
Şiəlikdə imamətə ən güclü dəlil hansı əqli iddiadır? .......... 8
İmamların vəzifələri nə olmalı idi? 3 variantdan biri doğrudur. .......... 8
İmam - ya elmdə imam, ya da xəlifə olmalıdır .......... 9
İmamətin ikinci qayəsi, məsum xəlifə iddiası .......... 15
**Üçüncü Fəsil: Quranda İmamətə aid heç bir dəlil yoxdur** .......... 18
Şiəliyə görə dinin ən əzəmətli ərkanı olan imamət peyğəmbərlikdən belə üstündür .......... 18
Birinci cavabları: Guya İmamət Quranda yox, hədislərdə keçir .......... 20
İkinci cavabları: Bəzi ayələri yozaraq imamət haqqında olduğunu dedilər. .......... 21
Üçüncü cavabları: Dəlil olaraq bəzi ayələrin nazil olması (enməsi) səbəbləri ilə bağlı sünnədə gələn hədisləri imamətə dəlil gətirirlər. .......... 22
Dördüncü cavabları: Quranın təhrif edildiyini iddia edirlər .......... 23
Quranın "təhrif edilməsi" barədə uydurma şiə hədisləri .......... 24
Şiə kitablarında yüzlərlə "dəyişdirilmiş" ayələr .......... 25
Quranın təhrif edildiyini iddia edən yüzlərlə şiə alimi .......... 25
Əhl-Sünnənin nəsx barədə sözlərini təhrif kimi qələmə vermək cəhdləri və nəsxi isbat edən şiə alimləri .......... 27
**Dördüncü fəsil: 12 İmam barədə olan şiə hədislərinin acınacaqlı vəziyyəti və şiələrin hədis elmi** .......... 31
"12 İmam" etiqadını isbat etmək üçün şiələrin uydurduğu ən "güclü" hədisin təhlili .......... 31
"12 İmamın" adlarının bilinməməsi barədə şiə hədisləri və digər ziddiyyətlər .......... 35
Şiə kitablarında Qurana, ağıla, qeyrətə zidd olan yüzlərlə hədis .......... 35
Şiəlikdə hədis elminin bərbad vəziyyəti .......... 36
"12 İmam" etiqadına Əhl-Sünnə mənbələrindən hədis axtarma cəhdləri .......... 37